22_27 IYUl-QARA.qxd 6/12/2025 10:44 PM Page 1


# UNİKAL

№22 (2252) 13 iyun 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az


# Prezidentdan mühüm fərman: Sosial müavinatlar artırıldı



Səh.2



## Məleykə Abbaszadənin adı ətrafında böyük qalmaqal

*Son vaxtlar Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi qəbul imtahanlarında baş verən "texniki" səhvlər imtahan sisteminə olan etibarı ciddi şəkildə sarsıdıb. Son olaraq, 2025-ci ilin 1 iyun tarixində keçirilən qəbul imtahanında rus bölməsi üzrə riyaziyyat fənnindən bir sualda səhv tapılıb. Dövlət İmtahan Mərkəzi müvafiq sual üzrə şagirdlərin xeyrinə qərar qəbul ediləcəyini və həmin sualın düzgün cavablandırılmış kimi qeyd ediləcəyini bildirib və məsələni bu formada bir növ "ört-basdır" edib. Maraqlıdır ki, daha bir yaxın tarixdə, daha dəqiq desək, mayın 25-də II və III ixtisas qruplarına keçirilən qəbul imtahanlarında isə tarix fənni üzrə bir neçə sualda səhvlər aşkarlanıb. Bu da eyni qaydada abituriyentlər arasında ciddi narahatlıq doğurub. Təhsil mütəxəssisləri, eləcə də abituriyentlər haqlı şəkildə sualların məktəb proqramına uyğun gəlmədiyini, ən azı üç sualın problemli olduğunu və bunun da təxminən 15 balın itirilməsinə...*

Səh.8

## "İndi Ermənistanda siyasi mənzərə çox mürəkkəbdir"



*Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, Rusiya Prezidenti Putinin köməkçisi Vladimir Medinskinin Qarabağı mübahisəli bölgə adlandırmasından, bu ölkənin mətbuatında "Moskva Bakının Rusiyanın yeni regionlarını və Krımı tanımasına ümid edir" adlı yazının...*

Səh.4

## Şimaldan Azərbaycana qarşı təxribatçı niyyət



*Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinskinin 9 iyun tarixində Russia Today kanalına müsahibəsi zamanı keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı faktların təhrif olunduğu, Qarabağ bölgəsini mübahisəli ərazi kimi təqdim edən açıqlaması təəssüf və təəccüb doğurur.*

Səh.9

## "Prezident bununla bağlı hökumətə tapşırıqlar verib" - Hikmət Hacıyev



*"Azərbaycan İordaniya Krallığı ilə ticari-iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir". "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İordaniya Xəbər Agentliyinə (Petra) müsahibəsində deyib.*

Səh.2

22_27 IYUI-QARA.qxd 6/12/2025 10:44 PM Page 2



# Nigar deleqasiyamızı tənqid etdi



***"Avroviziya 2011" qalibi Nigar Camal deleqasiyamızı tənqid edib.***

Axşam.az xəbər verir ki, bu barədə ifaçı "Afaqla 10lar" verilişində danışıb. O, deleqasiyanın rəhbəri olmaq istədiyini vurğulayıb:

"Deleqasiyamızın rəhbəri olmaq istəyərdim. Niyə də yox? Çünki çox zəif komandamız var. Biz bu il 37 ölkədən 37-ci yeri tutduq. Düşünürəm ki, bu komandamızla əlaqəlidir. Mütləq yenilənmək lazımdır. "Avroviziya"da tanışlarımız çoxdur, yaxşı bilirik ki, necə keçir. Tək mən yox, heç kim məmnun deyil. Üç ildir finala keçmirik, acınacaqlıdır. Finala keçməyə çalışmaq lazımdır. Boykot zəif addım olar, məncə, mütləq finala keçməliyik".

# "Alim Qasımov əylənə, zarafat edə bilməz?" - Nura Suri





***Xəbər verdiyimiz kimi, Xalq artisti Alim Qasımov məclislərdən birində rep deyib.***

Xanəndənin bu addımı isə ötən gündən sosial şəbəkədə müzakirələrə səbəb olub. İnsanların əksəriyyəti A.Qasımovu buna görə tənqid ediblər.

Müğənni Nura Suri bununla bağlı sosial şəbəkələrdə yazılan tənqidlərə sərt reaksiya bildirib: "Alim Qasımovun toydakı görüntüləri yayılıb. Cəmiyyətimiz də tökülüşüblər şərhlərdə ağızlarına gələni yazıblar. Elə bil oturub gözləyirlər ki, kimsə nəsə etsin, bunlar da klaviatura "qəhrəmanları" öz zəhərlərini töksünlər şərhlərə.

Yaşlı insan əylənə bilməz? Zarafat edə bilməz? Elə bil ki, hamı hakimdi, həyat da məhkəmə. Qınanılası o qədər mühüm məsələlər var ki, onları görməzdən gəlməkdən bezmirsiniz, amma insanları əyləndiklərinə görə rahatlıqla təhqir edə bilirsiniz. Bir özünüzə də baxın, niyə bu qədər nifrəti içinizdə bəslədiyiniz səbəblərini də axtarın".



# "Özü daxmada yaşayırdı, amma məscid tikdirdi"

***"Elnarə ailə həyatı qurduqdan sonra sənətə 7-8 il fasilə verdi. Daha sonra mənə dedi ki, yenidən oxumaq istəyirəm. Elnarənin evinə gedəndə o vaxt Alatavada yaşayırdı. İşləmirdi, öz həyatında sarımsaq, qatıq satırdı. Öz qeyrəti ilə pul qazanırdı, burada ayıb bir şey yoxdur".***

Bu sözləri Prodüser Asif Kərimov Əməkdar artist Elnarə Abdullayeva haqda danışarkən deyib. O, sənətçi ilə iş birliyinə başladıqdan sonra ilk qazandığa pula məscid tikdirdiyini bildirib: "Sonra layihələrimiz oldu. Elnarə mənə dedi ki, "Evdəkilərdən halalıq almışam, sənin də əziyyətin var. Halallığın olsaydı, ilk qazanacağımız pulla kənddə məscid tikdirmək istəyirəm. Amma Elnarə özü daxmada yaşayırdı. Sonra ikinci dəfə də dedi ki, istəyirəm kəndə su çəkdirim. Elnarə məndən də halalıq alıb. Elnarə məscid tikdirirdi, kəndə su çəkdirirdi. Deyərdim ki, mənə pul ver? Necə deyim?".

# "İstəmirəm adım başqa kişi ilə hallansın"



***Əməkdar artist Şəbnəm Tapdıq Xalq artisti Sərxan Sərxanla eşq yaşaması idialarına son qoyub.***

Axşam.az xəbər verir ki, bu haqda müğənni "İncə səhər" proqramında danışıb. O bildirib ki, onun adına yalandan söz çıxarırlar: "Bu məsələyə aydınlıq gətirmək istəyirəm. Olmayan sözü ünvanıma deyəndə əsəb keçiriəm. Mən və eyni vaxtda bir müğənnimiz (Sərxan Sərxanı nəzərdə tutur - red.) "Gecikmiş məhəbbətim" mahnısını oxuyurdu. İnsanlar bu mahnı ilə məni səhv salırdılar. Yaxşı müğənnidir, dostumuzdur, hörmətim var. Amma ömrümdə biz onunla bir-birimizi sevməmişik, oturmamışıq, durmamışıq. O vaxt bizi yaraşdırıblar. Adıma niyə söz gəlməlidir ki? Biri deyir mən onu, başqası deyir o məni sevib. Bütün sənət adamlarına hörmətimiz var. Amma xahiş edirəm, təmiz adımın üstünə söz gətirməyin. Hansı proqrama baxıram deyirlər ki, kaş evlənəydilər. İstəmirəm adım başqa kişi ilə hallansın".

# "Pərvin bir çox kişilərin xəyalındakı qadındır"



***Müğənni Nadir Qafarzadə açıqlaması ilə diqqət çəkib.***

Şair Nazilə Səfərlinin ona ünvanladığı suala cavab verən sənətçi aktrisa Pərvin Abıyevanı yerə-göyə qoya bilməyib.

"Belə qıza kim elçi getməz ki? Bir çox bəylərin arzusunda olduğu qadındır. Mən belə düşünürəm. Bu rəngdə qadınlar xoşuma gəlir. Əsmərlərə ütünlük verirəm. Harada görsəm, baxıram. Yaraşıqlı bəy də görəndə deyirəm ki, Allah nə gözəl yaradıb. Uşaq da görəndə icazə alıb, öpürəm.

Pərvin artıq bəlli bir yaşa gəlib, bəy çörəyi yemək vaxtıdır. Mən onu ev xanımı kimi, uşaqları ilə görürəm artıq. Düşünürəm ki, o və qarşı tərəf ürəklə bir-biril'rini sevəcək, qadın xoşbəxtliyini yaşada biləcək".

22_27 IYUl-QARA.qxd 6/12/2025 10:45 PM Page 3





## "Kərimə" dövləti qurmaq istəyən qrup üzvlərinə hökm oxunub

***Terrorçuluqda ittiham olunan özlərini "Qisas qrupu" adlandıran 13 nəfərlik qrup üzvlərinin yekun məhkəmə iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Novruz Kərimovun sədrliyi ilə keçirilən son prosesdə təqsirləndirilənlərə hökm oxunub.

Hökmlə Faiq Zeynalov 17 il, Hüseyn Hüseynzadə 16 il, Etibar Məmmədzadə 16 il, İlham Şıxaliyev 17 il, İlkin Bağırov 16 il, Vüqar Mədətov 16 il, Elvin Cəfərov 15 il 6 ay, Elgün Ağayev 16 il, Yusif Mirzəyev 15 il 6 ay, Ruslan Əliyev 15 il 6 ay, Savalan Hüseynli 15 il 6 ay, Məhərrəməli Musayev 15 il 6 ay və Mir Vasid Əliyev 10 il müddətinə azadlıqdan məhrum ediliblər.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində saxlanılıblar.

DTX-də istintaqı yekunlaşdırılmış cinayət işi üzrə təqsirləndirilən şəxslərə AR Cinayət Məcəlləsinin 170.3, 234.1-1, 274, 28,277 və 278.2-ci madddələri ilə ittiham irəli sürülüb.

Cinayət işinin materiallarından müəyyən olub ki, xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Axundzadə Rufulla Höccət oğlunun tapşırığı ilə Azərbaycan Respublikası ərazisində "Kərimə" adlı şəriət qanunları ilə idarə edilən dini dövlətin qurulması məqsədilə "Telegram" ani mesajlaşma sistemində Şıxaliyev İlham Kamal oğlu tərəfindən yaradılmış "Qisas" adlı gizli qrupun üzvləri Bakı və Sumqayıt şəhərlərində yerləşən müxtəlif hərbi və digər təyinatlı obyektlərin fotoçəkilişlərini aparmaq, əldə edilmiş məlumatları hazırda xarici ölkədə məskunlaşmış Rufulla Axundzadəyə və onun oğlu Əlimürsəl Axundzadəyə göndərmək, eləcə də Azərbaycan Respublikasının ictimai və siyasi xadimlərinin həyatına sui-qəsd etmək barədə Rufulla Axundzadədən tapşırıqlar alıblar.

Qeyd edək ki, sabiq təhsil naziri Misir Mərdanov və "Real TV"-nin rəhbəri Mir Şahin Ağayev cinayət işi üzrə zərərçəkmiş şəxs qismində tanınıblar.

Təqsirləndirilən şəxslər onlara istinad edilən əməllərlə bağlı istintaq zamanı dəfələrlə etirafedici ifadələr veriblər. Cinayət işinin materiallarında həmin şəxslərin Rufulla Axundzadə qarşısında sədaqət andı içmələrinə dair videomateriallar, cinayət əməllərinə dair müxtəlif yazışmalar, səs yazıları mövcuddur.

# Məleykə Abbaszadənin adı ətrafında böyük qalmaqal

## Qəbul imtahanlarına salınan mübahisəli suallara dair ilginc iddialar: "texniki səhv", maraq əlaqələri, yoxsa DİM rəhbərinə qarşı sabotaj?

***Son vaxtlar Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi qəbul imtahanlarında baş verən "texniki" səhvlər imtahan sisteminə olan etibarı ciddi şəkildə sarsıdıb.***

Son olaraq, 2025-ci ilin 1 iyun tarixində keçirilən qəbul imtahanında rus bölməsi üzrə riyaziyyat fənnindən bir sualda səhv tapılıb. Dövlət İmtahan Mərkəzi müvafiq sual üzrə şagirdlərin xeyrinə qərar qəbul ediləcəyini və həmin sualın düzgün cavablandırılmış kimi qeyd ediləcəyini bildirib və məsələni bu formada bir növ "ört-basdır" edib. Maraqlıdır ki, daha bir yaxın tarixdə, daha dəqiq desək, mayın 25-də II və III ixtisas qruplarına keçirilən qəbul imtahanlarında isə tarix fənni üzrə bir neçə sualda səhvlər aşkarlanıb.

Bu da eyni qaydada abituriyentlər arasında ciddi narahatlıq doğurub. Təhsil mütəxəssisləri, eləcə də abituriyentlər haqlı şəkildə sualların məktəb proqramına uyğun gəlmədiyini, ən azı üç sualın problemli olduğunu və bunun da təxminən 15 balın itirilməsinə səbəb olduğunu dilə gətirirdilər. DİM isə həmin vaxt müəmmalı şəkildə deyilənləri qulaq ardına vuraraq hər hansı açıqlama verməyə gərək duymamışdı.

Hətta İTV-də "Sabaha saxlamayaq" verlişinə çıxan DİM-in eksperti qəbul imtahanlarında salınan sualın cavabının məktəblərdə tədris olunan tarix kitablarında başqa olmasına "izah" verərkən, Kembric Universitetindəki tədqiqatı "sübut" kimi təqdim edib. Belə çıxır ki, məktəblilər qəbul imtahanlarına hazırlaşarkən artıq dünyanın müxtəlif elmi mərkəzlərinin tədqiqatlarını da öyrənməlidirlər?!

Oxşar problemlər bundan əvvəlki illərdə də - abituriyentlərin qəbul imtahanlarında, hətta müəllimlərin işə qəbulu imtahanında da baş verib və böyük narazılıqlara səbəb olub. Son dövrlər isə bu cür problemlərin artması yaşananları "texniki səhv" adlandırıb, təsadüfi bir hadisə kimi qiymətləndirməyi mümkünsüz hala gətirib. Təhsil sahəsindəki bu növ ardıcıl pozuntular artıq təkcə imtahanlarda baş verən kiçik səhvlərlə izah edilə bilməyəcək bir vəziyyətə çatıb.

Şübhəsiz ki, bu səhvlərin ardıcıl təkrarlanması artıq ilk olaraq sanki bunun məqsədli şəkildə edildiyini və "yad" abituriyentlərin (DİM-in "bunker müəllimlərinin" hazırlamadığı abituriyentlərin) imtahanlarda uğur qazanmalarına maneələr yaratmağa hesablandığı fikrini ağıllara gətirir. Maraqlıdır, əgər bu cür problemlər yalnız texniki səhvlərdən qaynaqlanırsa, o zaman niyə eyni səhvlər dəfələrlə təkrarlanır və bir çözüm yolu tapılmır? Məqsəd tələbələrin biliklərini ölçməkdir, yoxsa onların imtahanlardan keçməmələri üçün əlavə maneələr yaratmaq?

"Azpolitika.info"nun yazdığına görə, "bunker müəllimi" anlayışı DİM-in imtahan suallarını hazırlayan şəxsləri ifadə edir. Bu şəxslər, imtahan suallarının hazırlanmasında və yoxlanılmasında iştirak edirlər. Lakin bu şəxslərin şəffaflığı və məsuliyyəti məsələsi ciddi suallar doğurur. Bəzi iddialara görə, məhz DİM-in rəhbərliyi və "bunker" adlandırılan müəllimlər arasında maraq əlaqələrinin nəticəsi olaraq imtahan suallarında qəsdən səhvlər və mübahisəli suallar salınır ki, bu da abituriyentlərin nəticələrinə mənfi təsir göstərir. Məsələ ondadır ki, sözügedən müəllimlərin imtahan suallarının hazırlanmasında iştirak etməsi və eyni zamanda abituriyentlərə hazırlıq keçməsi maraqlar toqquşmasına səbəb olur. Mövcud vəziyyət, imtahan suallarının qəsdən çətinləşdirilməsi və ya səhvlərlə hazırlanması ehtimalını yaradır. Bu da uzun illərdir Məleykə Abbaszadənin sədrlik etdiyi DİM-in fəaliyyətindəki şəffaflığın və obyektivliyin itməsi, qurumun "bunker müəllimlər"in biznes maraqlarının qoruyucusuna çevrildiyinə dair fikirlərin yayılmasına səbəb olur.

Keçmiş təhsil naziri Misir Mərdanov da bu günlərdə adı çəkilən sayta müsahibəsində qəbul imtahanları üçün hazırlanan sualların problemli tərəflərindən danışmış, bu sualları tərtib edən şəxsləri tənqid etmişdi. Sitat: "Üzümü tuturam o sualları yazanlara: hesab edin ki, o sualı övladınıza verirsiniz. Hər bir sualda hökmən bir xüsusi yanaşma işlətməlisən ki, onu həll edəsən. Yadına düşməsə, edə bilməyəcəksən. Belə suallar vermək olmaz... Hər bir sual imtahan üçün öyrədici xarakter daşımalıdır. Bizim institutda da "bunker müəllimləri" var. Onlara dəfələrlə demişəm ki, məktəblərdə verdiyimiz biliyə uyğun suallar hazırlayın ki, uşaq da cavablandıra bilsin. Təəssüf ki, bunu etmirlər. Ən ciddi məsələ də odur ki, məktəb və ayda 500-700 manat alan müəllim bu gün "bunker" müəllimlərinin hazırladığı suallara cavab verə biləcək şagird hazırlaya bilmir. Müəllimlərə verilən suallara baxıram, sözün düzü, əsəbiləşirəm. O sualları kimlər hazırlayır? Onların özləri bu suallara cavab verə bilərlərmi? Suallar təhsilin inkişafına xidmət edirmi?".

Adının açıqlanmasını istəməyən təhsil mütəxəssisi isə "Unikal"a açıqlamasında DİM-in rəhbərliyi və "bunker" adlandırılan müəllimlər arasında maraq əlaqələrinin nəticəsi olaraq imtahan suallarında qəsdən səhvlər və mübahisəli suallar salınmasını istisna etməyib, bununla belə, adıçəkilən qurumun rəhbəri Məleykə Abbaszadəyə qarşı sabotajın mümkünlüyünü də vurğulayıb: "Son 2-3 ildə onun təqaüd yaşını keçməsi səbəbindən vəzifəsi ilə vidalaşacağına dair xəbərlər mütəmadi olaraq yayımlanır. Belə xəbərlərin fonunda kimlərinsə qəbul imtahanlarının obyektivliyinə, şəffaflığına şübhə salacaq "yanlışlara" yol verməsi, beləliklə də, DİM rəhbərliyini hədəfə gətirməsi də ağlabatan versiyadır. Bu günlərdə sabiq deputat və təhsil eksperti Etibar Əliyev sosial şəbəkə hesabında yazmışdı ki, "televiziyalar və saytlarda Məleykə Abbaszadəni tənqid edən ekspertlər növbəyə durub. Tıxac vargNə məsələdir? Deyəsən xoruzun quyruğu görünür..." Sabiq deputat konkret nə demək istədiyini açıqlamamışdı, lakin çoxlarında belə bir fikir formalaşıb ki, hər fürsətdə DİM rəhbərini hədəfə çevirməyə çalışan bir qrup var. Bu qənaətin fonunda son qəbul imtahanlarındakı suallarla bağlı ortaya çıxan və "texniki səhv" kimi xarakterizə edilən xətalar təsadüfə oxşamır".



Yeri gəlmişkən, DİM-in publik hüquqi şəxsə çevrildikdən sonra bu qurumun öz etibarlılığını kölgə altında qoyduğuna dair sosial şəbəkələrdə çoxsaylı rəylərə rast gəlmək də mümkündür. Əksəriyyəti təhsil sektoru ilə birbaşa bağlı olan şəxslər tərəfindən yazılan həmin rəylərdə vurğulanır ki, Məleykə Abbaszadə və rəhbəri olduğu qurumun əvvəlki illərdəki düzgün fəaliyyətinə irad tutula bilməz, lakin son vaxtlar DİM yanlış addımlarla, qərarlarla xaotik vəziyyətə yol açıb. "İndi DİM təhsildə konkret olaraq bazar və atdığı addımlarla təhsilə xidmət etmək yerinə xaos yaradır. DİM-in imtahan sistemi və modeli məktəb sistemini iflic edib. Həmçinin blok fənnlər üzrə ikinci cəhd imtahanının ödənişli olması, birinci cəhd imtahanında qərəzli şəkildə müəyyən fənnlərin seçilərək şagirdin bilik və yaşı nəzərə alınmadan sualların qoyulması və DİM-in heç bir iradı qəbul etmək istəməməsi doğru deyil. Bu sistem birbaşa şagirdi məktəbdən uzaqlaşdırmaq, repetitorluğu daha da təşviq etmək məqsədi daşıyır. Yazıq deyilmi bu balalar?" - çox sayda tənqidi şərhlərdən birində vurğulanır.

Belə görünür, bizi qarşıda DİM və onun rəhbəri Məleykə Abbaszadənin adı ətrafında sərt tənqidlərin, kəskin iradların şahidi olmağa davam edəcəyik. Əlbəttə, bu tənqid və iradların nəyə, ya da kimə qarşı və niyə hesablandığını dəqiq bilmədən...

***Toğrul Əliyev***

22_27 IYUI-QARA.qxd 6/12/2025 10:45 PM Page 4



# Şimaldan Azərbaycana qarşı təxribatçı niyyət

## Rusiya Azərbaycanla münasibətlərində oyun oynayır, yoxsa...



***Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinskinin 9 iyun tarixində Russia Today kanalına müsahibəsi zamanı keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı faktların təhrif olunduğu, Qarabağ bölgəsini mübahisəli ərazi kimi təqdim edən açıqlaması təəssüf və təəccüb doğurur.***

"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinskinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı iddialarına dair şərhində deyib.

"Təəccüblü hal odur ki, Rusiya Federasiyasının Prezidentinin köməkçisi, habelə Rusiyanın Tarix Təhsili üzrə Qurumlararası Komissiyasının sədri olan Medinski Qarabağın heç zaman mübahisəli ərazi olmadığını bilmir. Xatırlatmaq istərdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Rusiya özü Qarabağı Azərbaycanın ərazisi kimi tanımışdır və tanıyır. Eyni zamanda, sual doğuran məqam ondan ibarətdir ki, Minsk Qrupunun həmsədri olmuş ölkənin Prezidentinin köməkçisi dövlətinin bu məsələ ilə bağlı mövqeyini ya dərk etmir, ya da dərk etmək istəmir. Təəssüf ki, Rusiya Prezidentinin köməkçisi Rusiya Ukrayna müharibəsini Qarabağda mövcud olmuş vəziyyətlə müqayisə edir. Azərbaycan heç zaman heç bir ölkənin ərazi bütövlüyünü pozmadığına görə və heç bir ölkəyə qarşı aqressiv müharibə aparmadığına görə belə müqayisə yersizdir. Azərbaycan 2020-ci və 2023-cü illərdə öz suveren və beynəlxalq birlik tərəfindən tanınmış ərazilərində Vətən müharibəsi və antiterror tədbirləri həyata keçirib. 44 günlük Vətən müharibəsi və 1 gündən az olaraq davam etmiş 2023-cü il antiterror tədbirləri Azərbaycanın tam qələbəsi və Ermənistanın məğlubiyyəti ilə nəticələnib və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Ermənistanın işğalına son qoyulub. Cənab Medinskiyə tövsiyəmiz odur ki, səlahiyyətinə aid olmayan məsələlərə dair yanlış iddialar səsləndirməklə dövlətlərarası münasibətlərə xələl gətirməsin", - deyə A.Hacizadə bildirib.

Bu barədə fikirlərini bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, Rusiyanın "RİA Novosti" agentliyinin "Moskva Bakının Rusiyanın yeni regionları və Krımı tanımasına ümid edir" xəbəri Kreml sahibinin köməkçisi Vladimir Medinskinin son müsahibəsində Qarabağı "mübahisəli ərazi" kimi adlandırmasının təsadüfi, yəni, dil sürüşməsi olmadığını göstərir. Onun fikrincə, Rusiyanın dövlət agentliyinin bu xəbəri adının çəkilməsini istəməyən mənbəyə istinadən yayılıb. Həmin mənbənin Kremldən olduğu aşkardır: "Kremlin "RİA Novosti" vasitəsilə Bakıya göndərdiyi mesajı belə oxumaq lazımdır: "Azərbaycan Rusiyanın Ukraynadan qopardığı bölgələri, o cümlədən Krımı Rusiya ərazisi kimi tanımasını istəyirik". Ötən ilin dekabrında Rusiya səmasında Azərbaycanın mülki təyyarəsini raketlə vurduğuna və vətəndaşlarımızı öldürdüyünə görə Azərbaycandan üzr istəməyən, günahkarları cəzalandırmayan Kreml hələ bizdən Ukraynanın işğalını tanımamızı istəyir. Bu, heç zaman mümkün olmayacaq. Belə olan halda Kremlin və rusiyalı rəsmilərdən, deputatlardan və diplomatlardan Azərbaycana münasibətdə əvvəlkitək təxribatlar gözləməliyik. Maraqlıdır, Kreml bu "istəyini" ilk dəfə Azərbaycanın adını çəkərək səsləndirib. Kreml eyni istəyinin yerinə yetirilməsini strateji tərəfdaş adlandırdığı dövlətlərdən, o cümlədən Çindən də gözləyirmi? Kreml Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi Birliyi üzvlərindən də Krımı Rusiya ərazisi kimi tanımasını istəyirmi? Başqalarını bilmirəm, Azərbaycan Xarici İşlər Nazirliyi "RİA Novosti"nin təxribatçı xəbərini cavabsız qoymamalıdır".

Sosial Tədqiqatlar Mərkəzinin eksperti Aqşin Kərimov hesab edir ki, Rusiya Prezidenti Vladimir Putinin köməkçisi Vladimir Medinskinin Ukraynadakı müharibəni keçmiş Qarabağ münaqişəsi ilə müqayisə etməsinin pərdəarxasında maqarlı məqamlar var. Onun fikrincə, Kremldən verilən açıqlama Rusiyanın Ukraynada apardığı hərbi kampaniya nəticəsində geosiyasi kövrəkliyə düşməsini izah edir: "Rusiya buna görə də, özünün güc olmaq iddiasının zəifləmədiyini, xarici və müdafiə siyasətini postsovet məkanı üzərində tənzimlədiyini göstərən informasiya əməliyyatlarına ehtiyac duyur. Bununla belə, Rusiyanın hekayələri Azərbaycanın suverenlik, müstəqillik, təhlükəsizlik sahələrinə müdaxilə edə bilmək imkanlarından uzaqdır. Rusiyanın Azərbaycanın Qarabağ münaqişəsini bitirməklə yaratdığı reallıqları dəyişdirmək potensialı və müqavimət ruhu yoxdur. Bundan başqa, ümumiyyətlə Rusiya xarici siyasətinin Cənubi Qafqaz oxu üzrə dinamikası çoxdan dəyişikliyə məruz qalıb, bu da Kremli Azərbaycanla əməkdaşlıq sahələrini genişləndirməyə sövq edir".

Şərhçi burada Ermənistan amilinin olduğunu da irəli çəkib. O bildirib ki, Medinskinin bəyanatı hazırda Azərbaycanla Rusiya arasında Ermənistanla bağlı yaranmış fikir ayrılıqlarına mümkün işarələrdir: "Ehtimalla Rusiya Ermənistanın təhlükəsizliyi, erməni kilsəsi ilə Nikol Paşinyan arasındakı qarşıdurma xətlərinə nəzarətdə Azərbaycanla Türkiyənin üstün mövqelərə çıxmasından narahatdır. Azərbaycanla Ermənistanın sülh gündəliyinə Moskva mərkəzli tezislər əlavə etməyə çalışır. Bundan əlavə, mayın axırlarında dünyanın kəşfiyyat orqanlarının şefləri Rusiya Təhlükəsizlik Forumuna toplaşdı. Yəqin ki, Medinskinin açıqlaması qapalı görüşlərdəki məxfi qrifli məlumatların paylaşılmasına, onun Moskva tərəfindən təhlilinə və prosesdə Azərbaycanı hansısa oyuna cəlb etmək cəhdlərinə əsaslanır. Bunun ən dərinlikdəki məqamları barədə dəqiq fikir yürütmək çətindir. Ancaq bir neçə məsələ araşdırma predmeti ola bilər:

- Azərbaycanın NATO ilə əlaqələri müsbət meyarlar üzrə inkişaf etdirməsi, bunun Xəzər dənizinin təhlükəsizliyindəki rolu və əhəmiyyəti,

- Rusiyanın Azərbaycandan Ukrayna əleyhinə yardım tələb etməsinə Bakının isti yanaşmaması səbəblərindən Azərbaycanla olan ziddiyyəti maraqları qabardır. Açıqlamanın İstanbul danışıqlarından sonra verilməsi də məncə təsadüfi sayıla bilməz.

- Azərbaycanla Böyük Britaniya arasındakı münasibətlərdəki dinamikalar və bunun Rusiyanın maraqları ilə uyğunsuzluğu,

- İranın nüvə proqramı ilə əlaqədar Rusiya ilə ABŞ-nin eyni mövqeni bölüşməsi və Azərbaycanın regional təhlükəsizlikdən dolayı məsələyə həssas yanaşmaları,

- Azərbaycanın Rusiyada sığınacaq almış separatçılara qarşı keçirdiyi kəşfiyyat əməliyyatları Kremldəki qüvvələri Bakıya qarşı fəallaşdırır".

***Seymur Əli***



## Sənəd qəbulu davam edir

***2025/2026-cı tədris ili üçün "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə sənəd qəbulu davam edir.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyi məlumat verib.

Proqrama son müraciət tarixi 15 iyun 2025-ci il tarixi olaraq müəyyən edilib.

Dövlət Proqramına müraciət zamanı sənədlərini düzgün şəkildə təqdim edən namizədlər növbəti mərhələ olan müsahibə mərhələsinə dəvət olunacaq.

Müvafiq Qaydaların tələblərinə uyğun olaraq, namizədlərə şəxsi kabinet üzərindən sənədlərin natamamlığı və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra onlara daha 3 (üç) iş günü vaxt verilərək sənədlərini düzgün şəkildə təqdim etmələri üçün imkan yaradılacaq.

Bildirilib ki, müsahibələrə 25 iyun 2025-ci il tarixindən etibarən start veriləcək. Müsahibə mərhələsinə dair məlumatlar namizədlərin portal.edu.az-da yer alan şəxsi kabinetləri üzərindən məlumat veriləcək.

Qeyd edək ki, 2025/2026-cı tədris ili üçün Dövlət Proqramı çərçivəsində yekun nəticələrin iyul ayının sonunda açıqlanması nəzərdə tutulur.

## Ağdaş rayonunda pensiya təminatı və sosial müavinətlərin statistikası

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən 2024-cü ildə Ağdaş rayonu üzrə 10374 nəfər pensiyaçıdan 1244 nəfəri işləyən, 9130 nəfəri isə işləməyən pensiyaçı olmuşdur.***

Pensiyaçıların 6234 nəfəri yaşa görə, 2756 nəfəri əlilliyə görə, 1384 nəfəri isə ailə başçısının itirməyə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 385,69 manat təşkil etmişdir.

Ağdaş rayonu üzrə 2024-cü ildə 896 ailənin 4065 üzvünə ünvanlı dövlət sosial yardımı təyin olunmuş və 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği 108,69 manat olmuşdur.

Həmin dövrdə Ağdaş rayonu üzrə 771 birdəfəlik sosial müavinətlər alan şəxslərdən uşağın anadan olmasına görə 561 ailədə 585 uşağa təyin olunmuş müavinətin bir nəfərə düşən orta məbləği 479,84 manat, radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərə müalicə üçün 23 nəfərə bir nəfərinə düşən orta məbləği 300,0 manat, 91 nəfərə dəfn üçün bir nəfərə düşən orta məbləği 500,0 manat, penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş 69 nəfərə bir nəfərinə düşən orta məbləği 1380,0 manat təşkil etmişdir.

***Ağdaş Rayon Statistika İdarəsi***

22_27 IYUI-QARA.qxd 6/12/2025 10:45 PM Page 5



# İlham Əliyev Putini təbrik etdi



***Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putini təbrik edib.***

"Unikal" xəbər verir ki, təbrik məktubunda deyilir:

"Hörmətli Vladimir Vladimiroviç. Dövlət bayramı- Rusiya Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Azərbaycan və Rusiya xalqlarını əsrlər boyu ənənəvi sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək münasibətləri birləşdirir. Bu gün həmin nəcib ənənələr dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafı və məsələlərin geniş spektri üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün etibarlı bünövrədir.

Əminəm ki, dost xalqlarımızın və ölkələrimizin maraqları naminə biz bundan sonra da Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsi, strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda çoxplanlı qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün bütün səyləri göstərəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram".

# Şahin Mustafayevlə bağlı sərəncam imzalandı



***Şahin Abdulla oğlu Mustafayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Şahin Mustafayev Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub. Qeyd edək ki, iyunun 13-də Şahin Mustafayevin 60 yaşı tamam olur.

# Paşinyan Türkiyəyə gedir

***Ermənistanın baş naziri Nikol Paşinyan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmək üçün Ankaraya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə yüksək vəzifəli diplomatik mənbə açıqlayıb.

Qeyd olunur ki, Ermənistanın baş nazirinin Türkiyəyə səfəri iyunun 20-nə planlaşdırılıb: "Paşinyan və Ərdoğan Ermənistanın Türkiyə və Azərbaycanla münasibətlərini müzakirə etməyi planlaşdırır. Gündəliyə İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanması ilə bağlı bir sıra digər məsələlər də daxildir".

***Ağarza Elçinoğlu***

# Prezidentdən mühüm fərman:
## Bütün sosial müavinətlər artırıldı

***Prezident İlham Əliyev sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.***



"Unikal" xəbər verir ki, Fərmana əsasən 2025-ci il iyulun 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilib:

1.1. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 300 (üç yüz) manat, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 250 (iki yüz əlli) manat, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 180 (yüz səksən) manat;

1.2. ailə başçısını itirməyə görə 140 (yüz qırx) manat;

1.3. müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına 140 (yüz qırx) manat;

1.4. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) 140 (yüz qırx) manat;

1.5. bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşaq üçün 140 (yüz qırx) manat;

1.6. beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 140 (yüz qırx) manat;

1.7. övladlığa götürülən uşağa (18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar istisna olmaqla) görə 240 (iki yüz qırx) manat;

1.8. himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə: 0-6 yaş arası uşağa görə 500 (beş yüz) manat, 7-13 yaş arası uşağa görə 600 (altı yüz) manat, 14-18 yaş arası uşağa görə 650 (altı yüz əlli) manat;

1.9. uşağın anadan olmasına görə 600 (altı yüz) manat;

1.10. dəfn üçün 600 (altı yüz) manat.

2. 2025-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin aylıq məbləğləri aşağıdakı kimi müəyyən edilsin:

2.1. Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2200 (iki min iki yüz) manat;

2.2. Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün 2000 (iki min) manat;

2.3. şəhid ailəsi üçün 700 (yeddi yüz) manat;

2.4. 20 Yanvar şəhidinin ailəsi üçün 700 (yeddi yüz) manat;

2.5. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə 700 (yeddi yüz) manat;

2.6. müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə:

2.6.1. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 600 (altı yüz) manat;

2.6.2. orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 500 (beş yüz) manat;

2.6.3. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 400 (dörd yüz) manat;

2.7. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə 120 (yüz iyirmi) manat;

2.8. ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) 250 (iki yüz əlli) manat;

2.9. ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə 350 (üç yüz əlli) manat.

3. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği 2025-ci il iyulun 1-dən 1700 (min yeddi yüz) manat müəyyən edilsin.

4. Fəxri adlara görə aylıq təqaüdün məbləği 2025-ci il iyulun 1-dən xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 300 (üç yüz) manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 200 (iki yüz) manat müəyyən edilsin.

5. "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 329 (Cild I) 2-ci hissəsində "1500 (min beş yüz)" sözləri "1700 (min yeddi yüz)" sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

# "Prezident bununla bağlı hökumətə tapşırıqlar verib" - Hikmət Hacıyev

***"Azərbaycan İordaniya Krallığı ilə ticari-iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İordaniya Xəbər Agentliyinə (Petra) müsahibəsində deyib.



Diplomat Kral Əlahəzrət II Abdullah ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında müstəsna qardaşlıq münasibətlərinə və davamlı qarşılıqlı fəaliyyətə toxunub. O, həmçinin vəliəhd Şahzadə II Əl Hüseyn bin Abdullanın ötən il Bakıya səfərinin və onun Birləşmiş Millətlər Təşkilatının Iqlim Dəyişikliyi üzrə 29-cu Konfransı (COP29) çərçivəsində Prezident İlham Əliyevlə səmərəli görüşünün əhəmiyyətini vurğulayıb.

"Azərbaycan Prezidenti vəliəhd ilə görüşündən sonra İordaniya ilə müxtəlif sahələrdə, xüsusilə iqtisadi və ticarət sahələrində əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi ilə bağlı hökumətə tapşırıqlar verib, Bakı və Ammanın beynəlxalq forumlarda birgə işlədiyini və Fələstin məsələsi də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə ortaq baxışa malik olduqlarını izah edib", - deyə Hikmət Hacıyev qeyd edib.

***Ağarza Elçinoğlu***

22_27 IYUl-QARA.qxd 6/12/2025 10:45 PM Page 6



# İlham Əliyev iclas iştirakçılarına müraciət etdi

***Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda ikinci iclasının iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" xəbər verir ki, müraciət mətnini Azərbaycan Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdir Fərəh Əliyeva səsləndirib.

Müraciətdə deyilir: "Hörmətli iclas iştirakçıları!

Sizi Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda Bakı şəhərində keçirilən ikinci iclasının öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə ən xoş arzularımı yetirirəm.



Zəngin ortaq tarixi-mədəni köklərə malik türk xalqlarının həyatında ailə həmişə sosial nizamın bünövrəsini təşkil etmişdir. Bütün şanlı keçmişimiz boyunca qadınlar həm ailənin mənəvi dayağı olmuş, həm Vətənin müdafiəsini özlərinin müqəddəs vəzifəsi bilmiş, həm də yüksək ictimai mövqelər qazanaraq cəmiyyətin tərəqqisinə töhfə vermişlər. Müştərək əxlaqi sərvətlər xəzinəmizin yaşadılmasında onların müstəsna xidməti vardır.

Hazırkı qlobal çağırışlar dövründə Türk Dövlətləri Təşkilatı miqyasında ailə məsələləri və sosial siyasət sahəsində əlaqələrin dərinləşdirilməsi ölkələrimizdə ailə institutunun qorunması və gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır, ənənəvi dəyərlərlə uzlaşan dayanıqlı inkişaf və inklüzivlik yolunda yeni imkanlar açır.

Azərbaycan dövləti qadınların hüquqlarının təmin olunması və onların cəmiyyətdə rolunun genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Ölkəmizdə qadınlar öz mədəni-elmi potensialları ilə ictimai-siyasi proseslərdə yaxından iştirak edir, dövlət qurumlarında layiqincə təmsil olunurlar.

Əminəm ki, iclas zamanı ən aktual məsələlər ətrafında aparacağınız dolğun və səmərəli fikir mübadiləsi birgə hədəflərin müəyyənləşməsi və mühüm platformaların hazırlanması üçün əlverişli zəmin yaradacaq".

# Spiker Azərbaycanın TÜRKPA-ya sədrliyi barədə hesabat verdi

***TÜRKPA Assambleya Şurasının iclası çərçivəsində aparılacaq fikir mübadiləsi, qəbul ediləcək qərarlar təşkilatın məqsədlərinin həyata keçirilməsinə töhfə verəcək.***




"Unikal"ın məlumatına görə, bunu TÜRKPA-nın fəaliyyətdə olan sədri, Milli Məclisin spikeri Sahibə Qafarova Astanada iyunun 12-də TÜRKPA Assambleya Şurasının iclasında çıxış edərkən deyib.

O, çıxışında Milli Məclisin təşkilata sədrliyi dövründə görülən işlər haqqında hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sahibə Qafarova vurğulayıb ki, ötən dövrdə parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi, TÜRKPA-nın fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində bütün addımlar atılıb.

TÜRKPA-nın başqa beynəlxalq platformalara bənzəmədiyini, eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən qardaş xalqlarımızın təmsilçilərini eyni çətir altında birləşdirən bir təşkilat olduğunu deyən Milli Məclisin sədri bildirib ki, qardaş ölkələrimiz arasındakı əməkdaşlığın gündən-günə inkişaf etdiyi bir dövrdə TÜRKPA-nın səmərəli fəaliyyəti ölkələrimiz arasında birliyin və həmrəyliyin genişlənməsinə parlament dəstəyini təmin edir. Təşkilat həm də türk dünyasının vahid mövqeyinin beynəlxalq parlament platformalarında eşidilməsinə imkan yaradır.

Spiker Sahibə Qafarova deyib ki, Milli Məclisin quruma sədrliyi 13-cü Şura iclası zamanı qəbul edilən Fəaliyyət Planı əsasında həyata keçirilib. Ötən dövrdə daimi komissiyaların iclasları Fəaliyyət Planına uyğun olaraq müntəzəm şəkildə keçirilib, üzv ölkələrin qanunvericiliyinin yaxınlaşdırılması istiqamətində fəaliyyət davam etdirilib. Vahid hüquqi məkanın formalaşması prosesinin önəmli aspekti olan model qanunların hazırlanması istiqamətində fəaliyyət böyük səylə davam etdirilib. O cümlədən, seçki və referendumların müşahidəsi işi uğurla həyata keçirilib ki, bu da üzv ölkələrin dövlət strukturları ilə Assambleya arasında əməkdaşlığın güclənməsinə, üzv ölkələrdə demokratik seçki ənənələrinin daha da inkişafına töhfə verir.

Hesabatda həmçinin ölkələrimizdə qadınların və gənclərin rolunun artırılması, üzv parlamentlərimizin qadın və gənc təmsilçiləri arasında əməkdaşlığın daha da gücləndirilməsi baxımından TÜRKPA-nın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun işi əhəmiyyətli qiymətləndirilib və bu sahədə keçirilən tədbirlər təqdir edilib. TÜRKPA çərçivəsində ayrı-ayrı parlament komitələrinin çoxtərəfli əməkdaşlığı və dialoqu da ümumi işimizə mühüm töhfə kimi qiymətləndirilib.

Milli Məclisin sədri çıxışında vurğulayıb ki, praktiki əməkdaşlığın, qarşılıqlı təcrübə mübadiləsinin daha da genişləndirilməsi baxımından parlamentlərimizin aparatları arasında işbirliyi də vacibdir. Bu baxımdan TÜRKPA çərçivəsində ötən ilin iyununda Bakıda parlament Baş katiblərinin birinci görüşünün keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd olunanlarla yanaşı, Milli Məclisin təşkilata sədrliyi dövründə TÜRKPA-nın beynəlxalq əlaqələrinin inkişafı və gücləndirilməsi, digər təşkilatlarla münasibətlərinin daha da təkmilləşdirilməsi işinin də uğurla davam etdirildiyi qeyd olunub. Bu kontekstdə TÜRKPA-nın üzv parlamentlərin qarşılıqlı əməkdaşlıq təşkilatı olmaqla yanaşı, həm də ortaq maraqlarımızın beynəlxalq platformalarda parlament diplomatiyası vasitəsilə müdafiəsi və təbliği baxımından da xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Daha sonra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul olunub, həmçinin təşkilata sədrlik Qazaxıstana keçib.



# Viktor Orban İlham Əliyevə təbrik ünvanladı

***Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli canab Prezident. İcazə verin, Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə səmimi təbriklərimi çatdırım.

Ölkələrimiz arasında əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu, bizim daim genişlənən iqtisadi, siyasi əlaqələrimizdə özünü göstərir.

Mən Azərbaycanın Macarıstanın inkişaf etmiş strateji tərəfdaşı olmasından və enerji resurslarının Avropaya tədarükünü artıraraq ölkəmizin enerji təhlükəsizliyinə mühüm töhfə verməsindən məmnunam.

Cənab Prezident, Siz son görüşümüzdə bildirdiniz ki, Azərbaycan gələcəkdə bizi lazımi miqdarda təbii qazla təchiz edəcək və buna görə Sizə minnətdaram.

Sizi əmin etmək istərdim ki, hökumətim qarşılıqlı tərəfdaşlığımızı gücləndirməyə və yüksəksəviyyəli dialoqu davam etdirməyə sadiqdir.

Biz qəti şəkildə inanırıq ki, birgə səylərimiz ölkələrimizin inkişafına təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar arzulayıram".

# Azərbaycan nümayəndələri Vyanada tədbirdə iştirak ediblər

***Vyanada Azərbaycan və Avstriya arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın 11-ci iclası çərçivəsində hər iki ölkənin biznes dairələrinin iştirakı ilə "dəyirmi masa" təşkil olunub.***

"Unikal" xəbər verir ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycanın Avstriyadakı Səfirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun və Avstriya İqtisadiyyat Palatasının (WKO) birgə təşkilatçılığı ilə keçirilən "dəyirmi masa"da ümumilikdə 20-dən çox şirkətin nümayəndələri iştirak edib.

Komissiyanın Azərbaycan tərəfindən həmsədri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov forumda çıxış edərək bu kimi tədbirlərin iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsi və qarşılıqlı investisiyalar üçün yeni imkanlar yaradacağına əminliyini vurğulayıb.

"Dəyirmi masa" çərçivəsində "Azərbaycanda investisiya imkanları", "Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı" və "Mədənçilik" mövzularında sessiyalar təşkil edilib.

Tədbirdə Ələt Azad İqtisadi Zonasında, eləcə də Azərbaycanın digər sənaye və texnologiya parklarında tətbiq olunan güzəştlər barədə məlumat verilib, Avstriya şirkətlərinə ölkəmizə investisiya qoyuluşu imkanlarını nəzərdən keçirmək təklif olunub.

"Dəyirmi masa"da iştirak edən Avstriya şirkətləri cari ilin 27-28 iyun tarixlərində Bakıda keçiriləcək birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda iştiraka dəvət edilib.

Tədbir B2B və B2G formatında görüşlərlə davam edib.

22_27 IYUl-QARA.qxd 6/12/2025 10:45 PM Page 7



# "İndi Ermənistanda siyasi mənzərə çox mürəkkəbdir"

## Tofiq Zülfüqarov: "Sarkisyana və Köçəryana nifrət o qədər böyükdür ki, onları heç qəbul etmək istəmirlər"

***Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, Rusiya Prezidenti Putinin köməkçisi Vladimir Medinskinin Qarabağı mübahisəli bölgə adlandırmasından, bu ölkənin mətbuatında "Moskva Bakının Rusiyanın yeni regionlarını və Krımı tanımasına ümid edir" adlı yazının hansı məqsəd daşıdığından və bir neçə gündür Ermənistan baş naziri Nikol Paşinyanla bütün ermənilərin Katolikosu II Qaregin arasında baş verənlərin nə ilə nəticələnəcəyindən danışıb.***

***-Tofiq müəllim, Rusiya Prezidenti Putinin köməkçisi Vladimir Medinski müsahibəsində Qarabağı mübahisəli bölgə adlandırıb. Məlum olduğu kimi, Qarabağ mübahisəli ərazi deyil, elə Rusiyanın özü Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb. Belə olan halda Medinskinin bu cür fikir səsləndirməkdə məqsədi nədir?***

-Bununla bağlı bir neçə məsələni nəzərə almalıyıq. Belə ki, Vladimir Medinskinin fikirləri, bununla əlaqədar Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın açıqlaması və bu ölkənin rəhbərliyinə yaxın olan mətbuatda müxtəlif ekspertlərin mövzuya aid söhbətləri. Bunları nəzərə alaraq o qənaətə gəlmişəm ki, Medinskinin açıqlamasının əsas məqsədi Azərbaycan deyildi. O danışıqlarda nümayəndə heyətinin rəhbəri olaraq Rusiyanın Ukraynaya qarşı siyasətinin konseptual əsaslarını açıqlamaq istədi. Artıq Rusiya vaxtilə həm Ukrayna, həm də Rusiya tərəfindən qəbul olunmuş Alma-Ata bəyannaməsinin nəticəsində olan əraziləri tanımaq istəmir. Bu, faktiki olaraq açıq bəyan olunur. Onların Ukraynaya qarşı ərazi iddiaları var. Hətta konstitusiyalarına dəyişikliklər əlavə edərkən bu əraziləri Rusiyanın tərkibində bəyan ediblər. Rusiya atəşkəs rejiminə razılıq vermək istəmir. O şəkildə razılıq verəcəkdi ki, işğal altında olan ərazilərin statusu müəyyən olunsun. Yəni, Ukrayna qəbul etsin ki, bu ərazilər Rusiyanındır. Bununla əlaqədar Medinski Azərbaycanı misal gətirib və orada qəbuledilməz bəzi ifadələr istifadə edib. Daha sonra Rusiya XİN-in sözçüsü Mariya Zaxarova deyib ki, həmişə Qarabağı Azərbaycanın ərazisi kimi tanımışıq. Rəsmi olaraq Rusiyanın mövqeyi bir daha təkrar olunub. Bundan sonra onların müxtəlif saytlarında çağırışlar var idi ki, "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik, qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" var. Bu müttəfiqlik onu nəzərdə tutmalıdır ki, Azərbaycan strateji tərəf müqabili kimi Ukraynaya aid öz mövqeyini dəyişməlidir.

***- Rusiyanın "RİA Novosti" agentliyinin "Moskva Bakının Rusiyanın yeni regionları və Krımı tanımasına ümid edir" xəbəri nəyə hesablanıb?***

-Azərbaycan tərəfindən Ukraynanın ərazi bütövlüyü ilə bağlı dəfələrlə bəyanatlar verilib. Bizim mövqeyimiz ondan ibarətdir ki, Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik. Çağırışlar o istiqamətdə idi ki, biz də strateji tərəfdaşlığı nəzərə alaraq öz mövqeyimizdə dəyişikliklər etməliyik. Bu bir növ ona işarədir ki, biz Qarabağ məsələsində sizin mövqeyinizə dəstək veririksə, siz də Ukraynaya qarşı məsələdə bizə dəstək verin. Bunlar belə bir çağırış edirlər. O zaman onların məntiqinə uyğun olaraq bəzi məsələlərdə öz mövqelərində dəyişikliklər etməlidirlər. Vaxtilə Qars, Moskva və digər müqavilələr imzalanıb. Həmçinin, Ermənistan ərazisi barəsində göstərilib ki, onların ərazisi 9700 kvadrat kilometrdir. Qalan ərazilər isə Azərbaycanındır. Həmin qeyd etdiyimiz ərazi ilə Ermənistan Sovetlər Birliyinə daxil olub. Daha sonra bolşeviklər hissə-hissə bizim ərazilərimizi Ermənistana veriblər. Putinin belə bir mövqeyi var ki, kim hansı ərazi ilə Sovetlər Birliyinə daxil olubsa və həmin ərazilərlə çıxmalıdırsa, o zaman desinlər Zəngəzur, Göyçə mahalı Azərbaycanın tərkib hissəsidir. Bizim Ukraynaya qarşı mövqeyimizi dəyişməyə çağırışlar edirlərsə, Zəngəzura, Göyçə mahalına və digər ərazilərimizə aid öz mövqelərini dəyişsinlər, müttəfiq olduqlarını bizə göstərsinlər. Onlardan fərqli olaraq beynəlxalq sənədlərdə və Türkiyə ilə imzalanan sənədlərdə Ermənistan özü bu şəkildə ərazilərini təsbit edib. O çağırışlar da var ki, siz Ukrayna ərazisi ilə bağlı mövqeyinizi dəyişdirin, baxaq görək onlar öz mövqelərində dəyişiklik edə bilərlər? Donald Trampın ABŞ-nin prezidenti seçilməsindən sonra bəzi ərazilərə aid müxtəlif bəyanatlar səsləndirdi. Kanadaya, Qrelandiyaya, Panamaya və s. Bu trendləri Rusiya da istifadə edir. Medinskinin bəyanatında bu trendlər səslənib. ABŞ tərəfindən bəziləri deyir ki, Ukraynadan real baxış olmalıdır və s. Bu baxımdan, çox mürəkkəb mənzərədir.

***-Ermənistan baş naziri Nikol Paşinyan bir neçə gündür II Qaregini subaylıq andını pozmaqda ittiham edir və onun vəzifəsini tərk etməli olduğunu bildirir. Paşinyan bütün ermənilərin katolikosu II Qaregini vəzifəsindən uzaqlaşdırmaq üçün əlaqələndirmə qrupu yaratmaq istəyir. Sizcə, Ermənistanın hökumət başçısının II Qareginlə mübarizəsi nə ilə nəticələnəcək?***

-Biz görürük ki, Paşinyana qarşı koalisiya formalaşır. Bəzən deyirlər ki, bu, Rusiya tərəfindən dəstəklənən koalisiyadır. O fikirdəyəm ki, Paşinyan Rusiya siyasətini qane edən şəxsdir. Biz dəfələrlə görürük ki, o çətinliyə düşəndə Rusiya köməklik edir. Müharibədən sonra generallar üsyanı adlandırılan proses var idi. Məhz Rusiya tərəfindən bu proseslərə son qoyulub. İndi Ermənistanda siyasi mənzərə çox mürəkkəbdir. Digər tərəfdən Rusiya yaxşı başa düşür ki, Paşinyanın reytinqi aşağı düşür. Yenə görürük ki, səhnəyə köhnə siyasi kartlar gətirilir. Bunlar Sarkisyan, Köçəryan və s-dir. Elə bir görüntü yaratmaq istəyirlər ki, guya onlar Paşinyana təhlükə yarada bilərlər. Ermənistanda hamı başa düşür ki, bunlar heç bir nəticə verməyəcək. Ermənistan cəmiyyətində Sarkisyana və Köçəryana nifrət o qədər böyükdür ki, onları heç



kim qəbul etmək istəmir. Burada seçkilərin gərgin mənzərəsini yaratmaq üçün bu kartlardan istifadə olunur. Əminəm ki, bu Paşinyan və Rusiya arasında olan koordinasiya şəklində baş verir. Gələcəkdə göstərsinlər ki, seçkilər olub, Paşinyan çətin olsa da, öz rəqiblərinə qalib gəlib və s. Rusiyanın Paşinyana qarşı olmasına inanmıram. Nəyə görə narazı olsunlar? Paşinyan Rusiyaya qarşı nə isə edib? Xeyr. Orda-burda bəyanatlar verməklə deyil. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlüyündən çıxmayıblar. Paşinyanın özü Rusiyanın hərbi bazalarının 2049-cu ilə qədər qalmasını istəyir. Guya, sərhədçiləri ön plandan arxaya çəkiblər. Deyirlər ki, hava limanına gələnlər indi Rusiya zabitini deyil, hansısa ermənini görəcəklər. Amma arxa planda, qonşu otaqda Rusiya zabitləri əvvəlki kimi otururlar. Ermənistanın "Zvartnots" hava limanının bir tərəfində Rusiyanın hərbi bazasıdır. Bunlar onu göstərir ki, Paşinyan real baxımdan Rusiyaya qarşı heç nə etmir. Bu ölkələr arasında iqtisadi əlaqələr genişlənir, ticarət dövriyyəsi artır. Seçkilərdə baş verəcək bu hadisələri hansısa oyunun hissəsi kimi görürəm. Kilsənin burada iştirakı da məhz bu mahiyyəti daşıyır. Çünki kilsə nümayəndələri seçkilərdə iştirak edə bilməzlər. İndi bunlar arasında gərgin münasibətlər var ya yox, bu ikinci məsələdir. Gələcək seçkilərdə din nümayəndələri Paşinyana qarşı rəqabət təşkil edə bilməzlər.

***Anar Kəlbiyev***

# İcra başçılarından artan şikayətlərin pərdəarxası

## Bəzi rayon rəhbərlərinin vətəndaşları incitməsi barədə xəbərlər yenidən intensivləşib? - İKİ SƏBƏB...

***Son aylarda Bakı və əyalət rayonlarından bəzilərinin rəhbərləri barədə hökumət orqanlarına və mediaya şikayətlər artıb. Həmin şikayətlərdə icra başçılarının istər rəhbərlik etdikləri rayonların sosial-iqtisadi problemlərinə ögey münasibətindən, sakinlərin müraciətlərinə əhəmiyyət verilməməsindən, bu biganəliyə etiraz edənlərə isə aqressiv yanaşılmasından gileylənilir.***

Qeyd edək ki, şəhər və rayon icra hakimiyyətləri Azərbaycanda əhalinin ən çox narazı qaldığı dövlət qurumları sırasında ilk pillələrdə dayanırdı. Lakin bir müddət əvvələdək həmin narazılıqların öncəki illərə görə xeyli səngidiyi müşahidə edilirdi. Son aylarda rayon rəhbərlərindən şikayətlərin yenidən çoxalmağa başlaması səngimə prosesinin az çəkdiyi barədə mülahizə yürütməyə imkan verir. Belə ki, bəzi icra başçıları, deyəsən, təzədən "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə başlayıblar. Bəs bunun səbəbi nədir?



Mövzu ilə bağlı söhbətləşdiyimiz ekspertlər hesab edirlər ki, 2020-ci ildən başlayaraq Azərbaycanda çox sayda icra başçısının, onların müavinlərinin anti-korrupsiya əməliyyatları çərçivəsində həbsi rayon rəhbərlərini müəyyən qədər ehtiyatlı davranmağa məcbur etmişdi. "Təkcə 1 il ərzində - 2020-2021- ci illərdə Azərbaycanda 7 rayonun icra başçısı həbsə göndərildi. Düzdür, aradan keçən müddətdə qanunsuzluq edən həmkarlarının taleyindən nəticə çıxarmayan icra başçıları vardı. Bir sıra rayonlarda çox ciddi problemlər də qalmaqda idi. İcra başçıları dövlət büdcəsindən əhalinin sosial durumunun yaxşılaşdırılması üçün ayrılan məbləğləri müxtəlif yollarla nəğdləşdirməklə öz biznesinə xərcləyirdilər, dövlət və bələdiyyə torpaqlarının ələ keçirilməsi, özününküləşdirilməsi də adi korrupsiya halları idi. Lakin istənilən halda hiss olunurdu ki, rayon rəhbərləri vətəndaş şikayətlərinə qarşı həssaslıq göstərməyə başlayıblar, problemlərin həlli istiqamətində pis-yaxşı fəallıq göstərməkdədirlər. Bu, səbəbsiz deyildi. Mediada, cəmiyyətdə qanunsuzluqla, özbaşınalıqla məşğul olan digər icra başçılarının da oxşar aqibəti yaşayacağı, həbsə atılacağı barədə fikirlər, rəylər, xəbərlər özünə yer alırdı. Son zamanlar isə rayon rəhbərlərinin həbsi səngiyib və bu da belə görünür ki, bir çox icra başçısını rahatladıb, onlar yenidən köhnə konyenkturanın prinsipləri ilə işləməyə başlayıblar".

Həmsöhbətlərimiz başqa bir səbəb olaraq ötən ilin ortalarınadək kifayət qədər aktual olan bir məsələni - icra hakimiyyətlərinin ləğv edilməsinin mümkünlüyü yönündə müzakirələri göstərirlər: "Uzun müddət medianın yazdıqlarından, deputatların, ekspertlərin dediklərindən aydın şəkildə görmək olurdu ki, ölkənin yeni idarəetmə modelinə keçidi tamamilə realdır. Qeyd olunurdu ki, mövcud icra hakimiyyətlərinin ləğvi ilə start veriləcək bu yenilənmə Azərbaycanda dövlət idarəçiliyinin daha səmərəli və müasir tələblərə cavab verən bir struktura çevrilməsi məqsədi daşıyır. İki il əvvəl yeni yaradılan iqtisadi rayonlar isə ölkənin müxtəlif bölgələrinin spesifik ehtiyaclarına uyğun iqtisadi inkişafın təmin edilməsi üçün mühüm addım olaraq dəyərləndirilirdi. Bildirilirdi ki, dəfələrlə İcra Hakimiyyətlərinin fəaliyyəti ilə bağlı neqativ hallar yaşanıb, yeri dəyişdirilənlər də olub, həbs olunanlar da. Amma ümumilikdə problem hələ də qalmaqdadır. Çünki yerli İcra hakimiyyəti institutları sovetdən qalma katiblik institutunun davamıdır. Onların səlahiyyət və məsuliyyət bölgüsü tam qanunlar çərçivəsində müəyyənləşdirilməmişdi. Zaman-zaman təyin olunan icra başçıları davranışlarında özlərini hər şeyin sahibi kimi aparırdılar. Bu da vətəndaş narazılığına səbəb olurdu, biznesin inkişafına əngəl yaradırdı, belə ki, yerli sahibkarlara basqılar belə edilirdi. İnstitutsional olaraq yerli icra hakimiyyətlərinin özünü doğrultmadığı aşkar görünür. Bütün bunların fonunda ümumi ictimai rəy ondan ibarət idi ki, addım-addım yerli icra hakimiyyəti strukturlarının ləğvi, əvəzinə böyük iqtisadi rayonların inzibati ərazi vahidlərinin yaradılması və Prezidentin səlahiyyətli nümayəndələrinin təyin olunması prosesinə start verilib. Lakin sonradan icra hakimiyyətlərinin ləğvi ilə bağlı məsələ arxa plana keçdi. Düşünmək olar ki, bəzi icra başçıları bundan da cəsarətləniblər. Onlar bir ara özlərini məsuliyyətli, vətənə qarşı diqqətli aparırdılar, beləliklə, yerli icra hakimiyyətləri ilə bağlı mənfi təəssüratı dəyişdirmək, bir növ, işsiz qalmaq istəmirdilər. Ancaq şəhər və rayon icra hakimiyyətlərinin ləğvi məsələsi arxa plana keçincə, görünür, onlar da əvvəlki iş prinsiplərinə qayıdıblar, yenidən vətəndaşların problemlərinə ögey münasibət bəsləyir, yerli sahibkarları incidirlər, özlərinin və yaxın ətraflarının maraqlarını hər şeydən üstün tuturlar".

Bir sözlə, bəzi şəhər və rayonlardan yerli rəhbərliklə bağlı şikayətlərin yenidən intensivləşməsi iki mühüm səbəblə izah edilir: icra başçılarının həbs dalğasının səngiməsi və yerli icra hakimiyyətlərinin ləğvi ilə bağlı müzakirələrin gündəmdən çıxması... Lakin vətəndaşların icra başçılarından şikayətləri çoxalmağa davam edərsə biz həm onlarla bağlı həbs xəbərlərini yenidən oxuya, həm də şəhər-rayon icra hakimiyyətlərinin ləğvi yönündə müzakirələrin təzədən aktuallaşmasına şahidlik edə bilərik...

***Sənan Mirzə***

# "Aprel döyüşləri zamanı 18 döyüş mövqeyi itirdik" - Mnatsakanyan



***İyunun 12-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Levon Mnatsakanyan 2016-cı ildə baş vermiş və şərti olaraq "Aprel döyüşləri" adlandırılan hadisələrlə bağlı dövlət ittihamını müdafiə edən prokurorun növbəti suallarını cavablandırıb.***

"Unikal" xəbər verir ki, həmin vaxt general-leytenant rütbəsi ilə qondarma rejimin "müdafiə naziri" olan L.Mnatsakanyan Aprel döyüşlərinin nəticələrinin Ermənistanda necə qiymətləndirilməsi barədə sualı cavablandırarkən, həmin döyüşlər zamanı 18 döyüş mövqeyi "itirdiklərini" bildirib.

Məhkəmədə L.Mnatsakanyanın Aprel döyüşləri ilə bağlı jurnalistlərə verdiyi iki müsahibəsindən bəzi hissələr də nümayiş etdirilib.

O, Aprel döyüşlərindən sonra verdiyi müsahibədə "Ümumi vəziyyət nəzarət altındadır, qoşunların döyüş hazırlığı müvafiq səviyyədədir, sərhədlərimiz möhkəmdir və etibarlı əllərdədir" deyir. L. Mnatsakanyan jurnalistin "Düzdür ki, qarşı tərəf də müdafiə olunur?" sualına "Bəli" cavabını verir.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi Nəsir Bayramovun "Müsahibdə barəsində danışdığınız qarşı tərəf kimdir və sizin hansı hücumdan müdafiə olunur?" sualına isə L.Mnatsakanyan konkret cavab verməyib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Ad günü şənliyi keçirən şöbə müdiri işdən qovuldu

***Sabunçu Tibb Mərkəzinin Psixosomatika şöbəsinin müdiri Vüqar Qazıyev işdən çıxarılıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Vüqar Qazıyev bir müddət əvvəl Sabunçu Tibb Mərkəzində ad günü şənliyi keçirib. Bundan sonra tibb müəssisəsində qalmaqal yaranıb.

Nəticədə V.Qazıyevlə birlikdə təsərrüfat işçisi və baş tibb bacısı işdən qovulub.

***Seymur Əli***

# Sənədsiz evlər Milli Məclisdə müzakirə olundu



***"Məlumdur ki, təkcə Bakıda 500 mindən çox sənədsiz evlər var. Digər regionlarımızda da sənədsiz evlər çoxdur. Sənədsiz evlər təbii ki, sığortalana bilmir. Ötən ilin payızında subasma nəticəsində Sabunçu qəsəbəsində çox sayda mənzillərə, yaşayış sahələrinə zərər dəydi".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Regional məsələlər komitəsinin bu gün keçirilən iclasında deputat Arzuxan Əlizadə deyib.

"Təxminən 30-dan artıq həmin zərərçəkmiş mənzildə oldum. Məlum oldu ki, onların heç birinin sənədi yoxdur. Evlərdəki məişət əşyaları da sıradan çıxmışdı. Məsələ odur ki, evlər neftli sahədə yerləşdiyinə görə, problem təkcə subasma deyildi. Neftli suyun həmin evlərə dolması ilə acınacaqlı vəziyyət yaranmışdı. Nəticə etibarı ilə həmin vətəndaşlara dəstək olmaq imkanlarından məhrumuq, çünki evlərin sənədi yoxdur. Qurunt sularının axdığı kanalların üzərində evlər tikilib. Həmin kanalların təmizlənməsi lazım idi", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

# Leyla Əliyeva ÜST-nin tədbirində iştirak etdi




*İyunun 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İslandiyanın paytaxtı Reykyavikdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin təşəbbüsü ilə keçirilən İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının açılış iclasında və ilk hibrid dinləməsində videobağlantı vasitəsilə iştirak və çıxış edib.*

"Unikal" xəbər verir ki, Leyla Əliyeva çıxışı zamanı COP29-un ev sahibi Azərbaycanın bu sahədə atdığı addımlar, qazandığı təcrübə və həyata keçirdiyi təşəbbüslər barədə məlumat verib. Bildirib ki, iqlim dəyişikliyi təkcə ekoloji deyil, eyni zamanda, ictimai sağlamlıq baxımından da ciddi qlobal çağırışlardan biridir. O, ölkəmizdə su ehtiyatlarının idarə olunması, ətraf mühitin mühafizəsi və iqlimə davamlılıq üzrə reallaşdırılan layihələrdən bəhs edib.

Leyla Əliyeva, həmçinin IDEA İctimai Birliyi tərəfindən irəli sürülən müxtəlif təşəbbüslərlə gənclərin iqlim və sağlamlıq mövzularında fəallığının artırılmasının vacibliyini qeyd edib və beynəlxalq təşkilatları bu istiqamətdə geniş əməkdaşlığa çağırıb.

Sonra tədbirdə çıxış edən ÜST-nin Avropa üzrə regional direktoru Hans Kluge Azərbaycanın COP29 çərçivəsində göstərdiyi liderliyi və təşəbbüskarlığı yüksək qiymətləndirdiklərini bildirib. O vurğulayıb ki, Azərbaycan yalnız regionda deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə fəal mövqe tutur və nümunəvi yanaşmalar nümayiş etdirir. Hans Kluge, həmçinin iqlim dəyişikliyi və ictimai sağlamlıq sahələrində həyata keçirilən layihələrə verdiyi töhfələrə görə Leyla Əliyevaya təşəkkürünü ifadə edib.

Qeyd edək ki, ÜST-ün Avropa üzrə Regional Ofisi tərəfindən yaradılan İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının məqsədi iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərini diqqət mərkəzinə gətirmək, sahələrarası əməkdaşlığı gücləndirmək və bu istiqamətdə konkret fəaliyyət mexanizmləri formalaşdırmaqdır. Reykyavikdə keçirilən rəsmi açılış iclası ilə Komissiya öz fəaliyyətinə rəsmən start verib.

# Məhkəmə Gömrük Komitəsinin sabiq şöbə rəisinə ağır cəza verdi

***Rüşvət müqabilində qanunsuz olaraq avtomobil idxalını həyata keçirməkdə təqsirləndirilən Dövlət Gömrük Komitəsinin Tranzit Şöbəsinin rəisi Anar Aslanovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Nahid Mirzəyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən Anar Aslanov 8 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

Xatırladaq ki, Anar Aslanovun qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə məlumat daxil olub. Məlum olub ki, Anar Aslanov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ayrı-ayrı şəxslərdən aldığı külli miqdarda rüşvət müqabilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstismar olunan minik avtomobillərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin məhdudlaşdırılması haqqında" 29.03.2023-cü il tarixli qərarının tələblərini pozmaqla 2023-cü ilin iyun-avqust aylarında Gürcüstandan Azərbaycana idxal olunmuş istehsal tarixi 10 ildən artıq olan ümumilikdə 800-dən artıq avtomobilin qanunsuz şəkildə rəsmiləşdirməsinə şərait yaradıb. 2023-cü ildə keçirilən əməliyyat zamanı Anar Aslanov saxlanılıb.

Qeyd edək ki təqsirləndirilən şəxs Cinayət Məcəlləsinin 308.2. (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham edilib.

# Monopolistlərlə məmurların bais olduğu daha bir bahalaşma

## Qonşu və postsovet məkanına daxil olan ölkələrin paytaxtları arasında kartofun ən yüksək satıldığı üç şəhərdən biri Bakıdır... - İlginc təfərrüatlar, düşündürücü rəqəmlər!

***Bu yaxınlarda postsovet məkanında və Azərbaycanla qonşuluqda və ya yaxın coğrafiyada kartofun ən baha və ən ucuz satıldığı şəhərlərin adları açıqlanıb. Düzdür, hazırda region ölkələri arasında kartofun ən yüksək qiymətə Rusiyada satıldığı aydınlaşıb, lakin siyahıda Bakının üçüncü olması, nəinki Tbilisi və İrəvanla, hətta savaşın getdiyi Kiyevdən belə baha satıldığı aydınlaşıb.***

Məşhur "Numbeo" portalı xəbər verib ki, region ölkələri arasında kartof ən aşağı qiymətə Belarusda satılır. Rusiyanın paytaxtı Moskvada marketlərdə satılan kartofun 1 kiloqramının orta qiyməti 1 dollar 1 sent (1 manat 72 qəpik), Sankt-Peterburq şəhərində isə 87 sent (1 manat 48 qəpik) təşkil edib.

Kartofun ən ucuz olduğu şəhər isə Belarusun paytaxtı Minsk olub. Bu şəhərdə kartofun 1 kiloqramının orta qiyməti 45 sent (76 qəpik) olub.

Portalın məlumatına görə, paytaxt Bakının marketlərində satılan kartofun orta satış qiyməti isə 81 sent (1 manat 38 qəpik) olub ("Yeni avaz").

**Region ölkələrinin müxtəlif şəhərlərində kartofun 1 kiloqramının orta qiyməti belədir:**

Moskva (Rusiya) - 1,01 dollar;
Sankt-Peterburq (Rusiya) - 0,87 dollar;
Bakı (Azərbaycan) - 0,81 dollar;
Kiyev (Ukrayna) - 0,81 dollar;
İrəvan (Ermənistan) - 0,80 dollar;
Kişinyov (Moldova) - 0,79 dollar;
İstanbul (Türkiyə) - 0,74 dollar;
Antalya (Türkiyə) - 0,70 dollar;
Ankara (Türkiyə) - 0,69 dollar;
Tbilisi (Gürcüstan) - 0,68 dollar ;
Kazan (Rusiya) - 0,67 dollar;
Almatı (Qazaxıstan) - 0,60 dollar;
Astana (Qazaxıstan) - 0,57 dollar;
Bişkek (Qırğızıstan) - 0,57 dollar;
Batumi (Gürcüstan) - 0,54 dollar;
Tehran (İran) - 0,53 dollar;
Daşkənd (Özbəkistan) - 0,49 dollar;
Minsk (Belarus) - 0,45 dollar.

Yada salaq ki, ötən ayın sonlarında cari ilin ilk 3 ayı ərzində Azərbaycan xarici ölkələrdən 55 min 49 ton kartof idxal etdiyi açıqlanmışdı. Rəsmi məlumatlardan belə aydınlaşırdı ki, idxal olunan kartofun ümumi gömrük dəyəri 17 milyon 798 min dollar olub.



Açıqlanan rəqəmlərə istinadən apardığımız hesablama göstərir ki, idxal olunan 1 kiloqram kartofun gömrük dəyəri 55 qəpiyə (32 sent) bərabər olub.

**Cari ilin ilk 3 ayında Azərbaycan aşağıdakı ölkələrdən kartof idxal edib:**

Türkiyə - 36 737,5 ton (53 qəpik);
Gürcüstan - 12 878,8 ton (58 qəpik);
Pakistan - 3 187,4 ton (73 qəpik);
İran - 1 778,9 ton (44 qəpik);
Rusiya - 185,2 ton (45 qəpik);
Qırğızıstan - 128,1 ton (53 qəpik);
Misir - 112 ton (1,3 manat);
Qazaxıstan - 21,4 ton (43 qəpik);
Belarus - 20 ton (53 qəpik).

Məlumat üçün qeyd edək ki, bu ilin ilk 3 ayında Azərbaycandan Rusiyaya 1 009,4 ton kartof ixrac olunub. Rusiyaya satılan kartofun 1 kiloqramının gömrük dəyəri 55 qəpik olub.

Xatırladaq ki, Azərbaycan kartofçuluq ənənələri olan, Gədəbəy, Cəlilabad, Şəmkir, Tovuz kimi bir çox bölgələrdə sürətlə inkişaf etmiş bir sahədir. Lakin reallıq ondan ibarətdir ki, hazırda ölkədəki kartof istehsalı yerli tələbatı ödəmir. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda da vurğulanırdı ki, yerli tələbatı ödəmək üçün 2015-ci ildə 1,12 milyon ton kartof istehsal olunmalıdır. Buna baxmayaraq, Dövlət Proqramının başa çatmasından 10 il sonra - 2024-cü ildə ölkədə cəmi 927,4 min ton kartof istehsal edilib. Kartof istehsalının azalmasının əsas səbəbi əkin sahələrinin azalması ilə bağlıdır. "Yeni avaz"ın yazdığına görə, 2015-ci ildə ölkədə 61 min hektar sahədə kartof əkildiyi halda 2024-cü ildə 46,7 min hektar sahədə kartof əkilib.

Araşdırmalar göstərir ki, Azərbaycanda kartof istehsalının azalması və buna paralel olaraq idxalının artmasının əsas səbəbi xaricdən daha ucuz qiymətə kartofun gətirilməsidir. Bu isə yerli istehsalçı üçün rəqabəti çətinləşdirir.

İdxalın istehsaldan daha asan və ucuz başa gəlməsi kartof əkininə marağı azaldır. Yerli istehsalçıların rəqabətdə uduzmalarının səbəbi isə bu sahədə elmi və texnoloji yeniliklərdən istifadə edilməməsidir. Lakin hər bir halda kartof idxalı bir çox monopolist şirkətlər üçün yaxşı gəlir mənbəyidir, əvəzində itirən isə vətəndaşların cibidir. Digər tərəfdən, yerli məmurların aqrar istehsalı gücləndirmək əvəzinə daha çox şəxsi bizneslərini böyütməyə çalışması da, kənd təsərrüfatının müxtəlif sahələrində sıçrayışı əngəlləyir. Həm idxaldakı monopolizmi aradan qaldırmadan, həm də yerli istehsalın artmasına mane olan əngəlləri, o cümlədən, məmur tamahkarlığını ləğv etmədən hər hansı sıçrayış barədə danışmaq elə də məntiqli görünmür...

***Sənan Mirzə***

22_27 IYUl-QARA.qxd 6/12/2025 10:45 PM Page 10



# Abbas Abbasovun oğlu ilə bağlı müəmma

## Sabiq deputat niyə övladına Türkiyədə toy etdi?

***Bu günlərdə məlumat yayıldı ki, sabiq deputat Aydın Abbasovun oğlu Hüseyn ailə həyatı qurub.***

O, Mələk adlı xanımla evlənib. Cütlüyün toyu İstanbulda Çırağan Sarayında baş tutub.

Gecədə Xalq artisti Röya Ayxan, Əməkdar artist Xəyyam Nisanov, Ukraynanın Xalq artisti Ani Lorak səhnə alıb.

Təntənəli məclisdə aparıcılıq Nəsib Nura həvalə olunub.

Xatırladaq ki, Aydın Abbasov 1992-2006-cı illərdə Azərbaycanın Baş nazirinin sabiq birinci müavini postunu tutmuş Abbas Abbasovun oğludur. O, 1976-cı il avqustun 26-da Gəncə şəhərində doğulub, Londondakı Amerika kollecinin Biznesi idarəetmə fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti və 1998-2005-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sərmayələr İdarəsində Qazın satışı və marketinqi şöbəsinin rəisi vəzifəsində çalışıb. Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin bitərəf deputatı olan oğul Abbasov atasının hakim siyasi dairələrdə tamamilə gözdən düşməsinin ardınca millət vəkili mandatını da itirib.



Onun deputat olarkən Gəncədən olan digər millət vəkilləri və adı çəkilən şəhərin ovaxtkı icra başçısı ilə soyuq münasibətdə olduğuna dair iddialar yayılıb. Həmin iddialara cavabında Aydın Abbasov demişdi: "Gəncədən mənimlə bərabər 4 deputatıq. Bizim aramızda heç bir gərgin münasibət yoxdur. Gəncə deputatlarını bir-birinə bağlayan çox vacib amillər var. Gəncə şəhərinə, parlamentə və Gəncə şəhərindən olan sakinlərə vəkillik eləmək. Ona görə də Gəncədən olan deputatlar arasında bölüşmədiyimiz məqamlar ola bilməz. Hər birimizin arasında birbirimizə qarşı hörmət var. Gəncə şəhərinin icra başçısı ilə də münasibətlər işgüzar səviyyədədir. Sizin eşitdiyiniz bu cür xəbərlər ancaq provakasiya xarakterli ola bilər. Hansısa deputatla hansısa regionun icra başçısı arasında ziddiyyət ola bilər. Bunu inkar etmirəm. Amma belə ziddiyyət mənimlə Gəncənin icra başçısı arasında mövcud deyil. Gəncənin icra başçısı Gəncədən seçilən deputatlara çox böyük hörmətlə yanaşır..."

Oğul Abbasovun bu açıqlamasına baxmayaraq bəzi xəbərlərdə onun atasının bir zamanlar sahib olduğu siyasi mövqe və imtiyazlar səbəbindən özündən hədsiz arxayın davrandığı, özünü Gəncədən olan digər deputatlar, hətta ölkənin ikinci böyük şəhərinin icra başçısı ilə müqayisədə çox yüksək tutduğu barədə fikirlər qalırdı. Əvvəl də vurğuladığımız kimi, atasının hakim siyasi dairələrdə tamamilə gözdən düşməsinin ardınca millət vəkili mandatını da itirən Aydın Abbasov bundan sonra bütün diqqətini biznesə yönəltdi. Üstəlik, Rusiyada yaşayan və burada həm siyasi, həm də biznes mövqelərinə malik Abbas Abbasovdan fərqli olaraq o, öz biznesini Türkiyədə gücləndirməyə üstünlük vermişdi. Bir çoxları bunu oğul Abbasovun ruspərəst atasından fərqli görünmək üçün etdiyini düşünür. Deyilənləri nəzərə alsaq keçmiş deputatın oğluna məhz qardaş ölkədə toy etməsi təəccüb doğurmur.

Xatırladaq ki, Abbas Abbasovun adı son dəfə ölkə mediasında təxminən bir il əvvəl ilginc xəbərlə gündəmə gəlmişdi. Həmin vaxt yayılan xəbərlərdə deyilirdi ki, 75 yaşlı Abbas Abbasov hazırda Moskvada dovşan təsərrüfatı ilə məşğuldur. "O bir vaxtlar Azərbaycanda siyasi proseslərə nüfuz etmək istəyən keçmiş "Milyarderlər İttifaqı"nın başçısı olub, 2007-ci ildən Rusiya paytaxtında maliyyə, sığorta və pensiya xidmətləri göstərən "İşgüzar Əməkdaşlıq" Fondunun rəhbəridir. 2021-ci ilin iyulun 9-dan isə 10 faizlik payla Moskvada "Timoxino Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçilərindən biridr. Təsərrüfatın hüquqi ünvanı Moskva vilayətinin Yrəeqorovs şəhəri, Timoxino kəndi göstərilir. Təsnifata görə fermer təsərrüfatı dovşan əti istehsalı ilə məşğuldur. Müəssisənin internet səhifəsində (https://timokhino.ru/) qeyd olunur ki, Abbasova və ortaqlarına məxsus təsərrüfatın qablaşdırdığı məhsullar Moskvanın Bolşaya Çeryomuşkinskaya küçəsindəki RİO Ticarət Mərkəzində (Buxta pavilyonu) topdan satılır. "Timoxino Fermer Təsərrüfatı" üzərindən Abbas Abbasov və ortaqları 2021-ci ildə Rusiyada topdan ət və ət məhsulları satışı ilə məşğul olan "Pol'za Edy" LLC-ni də təsis edib. Onların təsərrüfat üzərindən yaratdığı digər şirkət isə heyvandarlıq təsərrüfatı ilə məşğul olan "Xoldinq Mirnıy" Məhdud Məsuliyyətli Cəmiyyətidir", - yayılan məlumatlarda vurğulanırdı.

Onu da deyək ki, bəzi məlumatlarda Abbas Abbasovun Moskvada məlum "Milyarderlər İttifaqı"nın yaradılmasında aktiv iştirakından sonra onun adı çəkilən oğlu üçün Azərbaycanda günlər heç də yaxşı keçməyib. 2015-ci ildə ata Abbasov oğlunu ölkədən çıxartmağı bacarıb. Həmin vaxtdan Aydın Abbasovun ölkəyə gəlmədiyi və əsasən Türkiyədə yaşadığı, buradakı biznesini idarə etdiyi, mütəmadi olaraq Rusiyaya getdiyi və ilin müəyyən hissəsini orada qaldığı yönündə də iddialar var.

***Sənan Mirzə***



## Daşınmaz əmlakla bağlı qanunvericiliyə dəyişiklik olunur

***Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış evləri və ya çoxmənzilli yaşayış binalarının yerləşdiyi torpaq sahələrinə dair tənzimləmələr aparılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Regional məsələlər komitəsinin bu gün keçirilən iclasında müzakirə olunan Torpaq Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Qanun layihəsinə əsasən, təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış evləri və çoxmənzilli yaşayış binalarının (bundan sonra - yaşayış sahələrinin) yerləşdiyi torpaq sahələrində yeni yaşayış sahələrinin tikintisi aşağıda müəyyən edilmiş hallar əsasında məqsədəuyğun hesab edilmədikdə həmin torpaq sahəsinin əvəzinə müvafiq məqsədlər üçün torpaq sahələri dövlət ehtiyat fondu torpaqlarından, bu mümkün olmadıqda isə mütənasib dəyərdə bələdiyyə mülkiyyətində olan torpaqlardan ayrılacaq.

Tikilinin mülkiyyətçisi bununla razılaşmadıqda və ya yuxarıda nəzərdə tutulmuş torpaq sahəsi olmadıqda məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələri dəyəri mülkiyyətçiyə ödənilməklə rekvizisiya qaydasında alınacaq.

Təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış sahələrinin həmin torpaq sahələrində tikilməsi aşağıdakı hallar olduqda məqsədəuyğun hesab edilməyəcək:

-məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələrinin gələcəkdə baş verə biləcək təbii fəlakət nəticəsində yaşayış sahələrinin tikintisi baxımından yüksək riskli ərazi olduğu müəyyən edildikdə;

-məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin yerləşdiyi torpaq sahələrinin təyinatı tikinti aparılmasına icazə vermədiyi və ya kommunikasiya xətlərinin mühafizə zonalarında yerləşdiyi müəyyən edildikdə.

Yuxarıda nəzərdə tutulmuş hallar tikili mülkiyyətçilərinin müraciəti əsasında və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) öz təşəbbüsü ilə 30 gün müddətində apardığı araşdırma nəticəsində müəyyən ediləcək.

Müraciətin və araşdırmanın nəticəsi olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) yuxarıda göstərilən hallar barədə qərar qəbul edəcək və həmin qərarı 3 gün müddətində tikilinin mülkiyyətçisinə göndərəcək.

Mövcud qanunvericiliyə əsasən, yanğın, digər qəza və təbii fəlakət hadisəsi nəticəsində tikili dağıldıqda, dağılan gündən ən geci iki il keçənədək tikilini bərpa etməyə və ya həmin sahədə yeni tikili ucaltmağa başlanarsa, həmin torpaq sahəsindən istifadə hüququ saxlanılır.

Yaşayış məntəqəsinin planlaşdırma və tikinti layihələrində həmin torpaq sahəsindən başqa məqsədlər üçün istifadə edilməsi nəzərdə tutulduğu hallarda dağılmış tikililərin bərpası üçün bu Məcəllə ilə müəyyən edilmiş qaydada başqa torpaq sahəsi verilir.

***Anar Kəlbiyev***

# 5 ayda vətəndaşlara geri qaytarılan ƏDV-nin məbləği açıqlandı



***Bu ilin yanvar-may aylarında Azərbaycanda pərakəndə ticarət və yaxud ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdiyi tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 78,319 milyon manatlıq hissəsi fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.***

"Unikal" bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.

Bundan başqa, "ƏDV geri al" layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçıların ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldığı yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam etdirilir. Ötən 5 ayda nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan məbləği 12,848 milyon manat olub.

# "Ölkə üzrə vahid plagiat sisteminin yaradılmasına ehtiyac var" - Ədalət Muradov

***Ölkə üzrə vahid plagiat sisteminin yaradılmasına ehtiyac var.***

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov VII İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransında (ISCEMR-2025) deyib.

Rektor bildirib ki, ölkədə elmi fəaliyyətin şəffaflığının təmin olunması üçün vahid plagiat yoxlama sisteminin yaradılmasına ciddi ehtiyac var: "Bu sahədə süni intellekt alətlərindən istifadə genişləndirilməli, xüsusilə elmi çatbotlardan səmərəli şəkildə faydalanmaq vacibdir. Müasir texnologiyaların elmə inteqrasiyası elmi keyfiyyətin artırılmasına mühüm töhfə verə bilər".

# Vilayət Eyvazov sıra baxışı keçirdi

***Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 12-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.***

"Unikal"ın məlumatına görə, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 138 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# 21 mindən çox şəxsə pensiya təyin olundu

***2025-ci ilin yanvar-may ayları ərzində 21 mindən çox şəxsə proaktiv qaydada yaşa, əlilliyə və ailə başçısını itirməyə görə pensiya təyinatı aparılıb.***

Bu barədə "Unikal"a Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Bildirilib ki, onların 55,87%-ni kişilər, 44,13%-ni isə qadınlar təşkil edib.

# Avtobus zolaqlarında maşınlara minib-düşə biləcəyik

***Avtobus zolaqlarında minik avtomobillərinin sərnişinləri mindirib-düşürməsi üçün xüsusi yerlər yaradılır.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb.

Bildirilib ki, bu yerlər əsas cəlbetmə məntəqələri, nəqliyyat vasitələrinin rahat manevr etməsi və sərnişinlərin təhlükəsizliyi nəzərə alınmaqla təşkil edilir.

Qeyd olunub ki, məqsəd avtobus zolaqlarında ictimai nəqliyyatın hərəkətinə mane olmadan sərnişinlərin minib-düşməsinə imkan yaratmaqdır.

# Bakıda yenicə açılan klinikanı sabiq nazir müavini ala bilər

## Fantastik qiymətə növbəti dəfə satışa çıxarılan özəl tibb müəssisəsinin yeni sahibi kim olacaq?



***Bakıda özəl tibb müəssisəsi növbəti dəfə satışa çıxarılıb. İqtisadiyyat.az xəbər verir ki, bu klinika paytaxtın Xətai rayonu, İlqar Zülfüqarov küçəsində yerləşir.***

Adıçəkilən özəl tibb müəssisəsi əvvəllər "Qismət", sonra "Alliance", hazırda isə "Dəniz" klinikası adı ilə fəaliyyət göstərir. Yeddi mərtəbədən ibarət və 4300 kv m. sahəyə malik olan klinika binası yenicə təmirdən çıxıb və bir neçə gün öncə klinikanın təmirdən sonra açılış mərasimi baş tutub.

Bütün zəruri tibbi cihaz və avadanlıqlarla təchiz olunan klinikanın 20-dən çox tibbi xidmət lisenziyası mövcuddur. Əməliyyat blokları, doğuş zalları, palatalar müasir üslubda tam işlək vəziyyətdədir. Klinikanın adi palatalarından əlavə, 30-dan çox tək nəfərlik (VİP) palatası da vardır.

Sahibi tibb müəssisəsini 15 milyon manata satışa çıxarıb.

Qeyd edək ki, klinika "Qismət" adı ilə ilk dəfə 2018-ci ildə, sonra isə 2019-cu ildə satışa çıxarılmışdı. Həmin vaxt da klinikanın satış dəyəri 15 milyon manat olub.

Bəzi iddialara görə, sözügedən klinikanı səhiyyə nazirinin sabiq müavini Elsevər Ağayev ala bilər. Keçmiş müavin vaxtilə dərman bazarında ciddi pay sahibi idi və ölkəyə dərman idxalını və, eləcə də topdan satışını həyata keçirən çox sayda firma onun nəzarəti altındaydı. Bir müddət öncə isə Ağayev klinika sahibi olmaq fikrinə düşüb. Onun yeni özəl tibb müəssisəsi yaratmaq yerinə, fəaliyyətdə olan klinikalardan birini almaq və həmin müəssisəni tam müasir səviyyəyə gətirmək istədiyi deyilir. Bu mənada 15 milyon manata satışa çıxarılan özəl tibb müəssisəsi keçmiş nazir müavininin diqqətini çəkə bilər.

Qeyd edək ki, E.Ağayev 1999-2022-ci illərdə Səhiyyə nazirinin müavini vəzifəsində çalışıb.Onun vəzifədə çalışdığı dövrlərdə böyük kapital topladığı, tibb sektorunda fəaliyyət göstərən müəssisələrinin, apteklər şəbəkəsinin, təchizatla məşğul olan şirkətlərinin olduğu barədə mətbuatda dəfələrlə yazılıb.

"Caspian International Hospital" və "Badam Medical Center" klinikalarının da Elsevər Ağayevə məxsus olduğu vurğulanır.

Yeri gəlmişkən onu da vurğulayaq ki, Azərbaycanda bir sıra klinikaların indiki və sabiq məmurlara, deputatlara məxsusluğu kimsəyə sirr deyil. Məsələn, paytaxtın Xətai rayonunda yerləşən "Medika Hospital"ın Dövlət Gömrük Komitəsinin keçmiş sədri Səfər Mehdiyevə məxsus olduğuna dair məlumatlar var. İddialara görə, bir müddət öncə Nizami rayonunda ikinci filialı açılan klinikaya sabiq "gömrük şefi"nin qayınları - Tarquliyevlər rəhbərlik edirlər.

Prezident Administrasiyası Dövlət Nəzarəti şöbəsinin müdiri Kərəm Həsənovun da "Mediland Hospital"adlı klinikası var. Onun Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə rəhbərlik edən zaman bu hospitalı təsis etdiyi deyilir.

Fövqəladə Hallar naziri Kəmaləddin Heydərovun həyat yoldaşının da Səbail rayonu ərazisində klinikası fəaliyyət göstərir. Məlumatlara görə, tibb ocağı - "Koreya Şərq Təbabəti klinikası" adlanır. Bu tibb mərkəzi Ruhəngiz Heydərovanın sahibi olduğu SEBA ilə Koreyanın Kyung Hee Universiteti arasında müqavilə əsasında fəaliyyət göstərir.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi işləmiş Arif Qaraşov paytaxtın Nəsimi rayonunda yerləşən "Medical Plaza"nın faktiki sahibidir. Belə ki, klinikanın qanuni təmsilçisi Qaraşova Rəmziyə Sahib qızıdı. R.Qaraşova isə Arif Qaraşovun həyat yoldaşıdır.

"Real" Tibb Mərkəzi isə Xətai rayon İcra Hakimiyyətinin sabiq başçısı Razim Məmmədova məxsusdur. Hazırda bu klinikanın direktoru onun qızıdır.

Ölkənin ilk tibb mərkəzlərindən olan "Oksigen klinikası" Milli Məclisin sabiq deputatı, "Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyevə məxsusdur. Bu klinika Bakının çox az özəl tibb müəssisələrində həyata keçirilən doğuş və qeysəriyyə əməliyyatları həyata keçirmək lisenziyasına malikdir.

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar.

Onu da deyək ki, bu ilin aprelində sabiq nazir müavininin Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri olmaq istədiyi barədə xəbərlər yayılmışdı. Qlobal.az-ın əldə etdiyi məlumatda deyilirdi ki, Naxçıvanda səhiyyə kluarlarında gəzən məlumatlara görə Elsevər Ağayev bir neçə ildir həmin fikrə düşüb.

Həmin vaxt məlumatın nə dərəcədə doğru olub-olmadığını eks-müavinlə dəqiqləşdirmək mümkün olmamışdı. Lakin aradan keçən müddətdə Naxçıvan Ali Məclisinin sədr müavini Anar İbrahimovun imzaladığı qərarla səhiyyə naziri postuna bu vəzifəni müvəqqəti icra edən Samiq Sadıxovun təyinatı Elsevər Ağayevin istəyinin gerçəkləşmədiyini təsdiqlədi.

***Toğrul Əliyev***

22_27 IYUI-QARA.qxd 6/12/2025 10:45 PM Page 12



## 5.3.12 Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# KOB evləri sahibkarların evinə çevrilib

## İş adamları KOB evlərinin sahibkarlığın inkişafına böyük dəstək verdiyini söyləyirlər

***Olkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar, sahibkarlığın dəstəklənməsi tədbirləri və dəstək mexanizmləri özəl sektorun inkişafına xidmət edir. Əvvəllər sahibkarlar biznes qurmaq üçün, bir neçə dövlət qurumunun qapısını döyməli olurdularsa, artıq dövlət KOB evləri vasitəsilə sahibkarlar üçün bütün xidmətləri bir məkana toplayıb.***

Kiçik və orta biznesin inkişafı məqsədilə yaradılan KOB evləri sadə dildə desək, sahibkarın canını dövlət idarələrinin qapısını gəzməkdən azad edib. Artıq sahibkarlar KOB evlərinə getməklə fəaliyyətləri üçün lazım olan sənədləri, icazələri bir ünvandan ala bilərlər. Sahibkarlıq fəaliyyəti üçün bütün lazımi dövlət qurumlarını bir ünvana toplayan Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ASAN Xidmət modelini bir növ KOB evlərində yaradıb.

Budəfəki yazımızda azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi mövzusunda KOB evlərinin əhəmiyyətinə toxunmağımız da təsadüfi deyil.

Sahibkarlar KOB evləri yarandıqdan sonra biznes qurmağın daha əlçatan və rahat olduğunu söyləyirlər.

Müsahibimiz Kərəm Məmmədov deyir ki, qardaşı ilə birgə biznes qurub. O, "Unikal" qəzetinə lazım olan sənədlərin hamısını bir məkandan, KOB evindən topladıqlarını söyləyir:" Hətta obyektə işıq, su çəkmək üçün də KOB evində xidmət var. KOB evində sahibkar üçün lazım olan bütün dövlət qurumlarının xidmət pəncərələri yaradılıb. Biz elə malın mənşə sertifikatını çox rahatlıqla KOB evindən aldıq. Dövlətimiz sağ olsun ki, biz sahibkarlara belə rahat şərait yaradıb. Əvvəl mənşə sertifikatını almaq üçün sahibkar AQTA-ya gedirdi. Hər sənədi bir qurumdan gedib alırdıq. Həftələrlə vaxtımız gedirdi. KOB evi bir növ sahibkarın ata evinə bənzəyir. Nəyə əlini uzadırsansa onu sənə verirlər. Əliboş qayıtmaq söhbəti yoxdur. Qanunla iş qurursansa dövlət bir məkandan bütün xidmətləri göstərir. KOB evi işimizi çox rahatlaşdırıb. Adi vətəndaşlar üçün ASAN Xidməti yaradıblar. Sağ olsunlar, sahibkarlar üçün də artıq asan xidmət olacaq bir məkan var. Bunlar da KOB evləridir", deyə müsahibimiz söyləyir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) "Unikal" qəzetinin sorğusuna cavabda bildirildi ki, "Xaçmaz KOB evi" ilk fəaliyyətə başlayan məkandır. 7 fevral 2020-ci ildə fəaliyyətə başlayıb.




"Yevlax KOB evi" isə 8 aprel 2021-ci ildə fəaliyyətə başlayıb.

"Bakı KOB evi" Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 6 yanvar 2023-cü ildə fəaliyyətə başlayıb. Bununla belə bu KOB evlərinin hamısı ətraf rayonlardan müraciətləri qəbul edir. Hazırda Gəncə şəhərində KOB evinin yaradılması istiqamətində son tamamlama işləri görülür.

Qurumdan bildirilib ki, Azərbaycanın KOB evi modeli beynəlxalq səviyyədə uğur əldə edib. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzinin keçirdiyi müsabiqədə ekspertlər tərəfindən KOB evləri qabaqcıl innovativ təcrübələrdən biri kimi qiymətləndirilib və Azərbaycanın nümunəvi modeli kimi qurumun saytında paylaşılıb (https://oecd-opsi.org/innovations/single-support-service-model-for-smes-sme-house/).

Sahibkarlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, əhatə dairəsinin genişləndirilməsi, bu xidmətlərə vahid məkanda asan və rahat çıxışın təmin olunması istiqamətində KOB evləri əhəmiyyətli rol oynayır.Ümumiyyətlə, KOBİA-nın struktur bölməsi olan KOB evləri biznes subyektləri üçün operativlik, nəzakətlilik, şəffaflıq və rahatlıq prinsiplərinə, müasir innovasiyalara əsaslanan dövlət-biznes ("G2B") və zəruri biznes-biznes ("B2B") xidmətlərinin göstərildiyi vahid məkandır. KOB evlərinin əsas üstünlüyü sahibkarlara biznes fəaliyyəti üçün lazım olan dövlət və özəl xidmətlərin vahid məkanda təqdim olunmasıdır. Bu isə sahibkarın biznes fəaliyyəti üçün sərf etdiyi vaxtın və əməliyyat xərclərinin azalması deməkdir. KOB evlərinin başqa bir üstün tərəfi isə sahibkarlara göstərilən xidmət səviyyəsinin ölçülə bilən olmasıdır. Bütün bunlar sahibkar məmnunluğuna və əlverişli biznes ekosisteminin inkişafına şərait yaradır, sahibkarlar daha çox öz bizneslərini inkişaf etdirməyə fokuslanırlar. KOB evləri, həmçinin fəaliyyət göstərdiyi regionda kiçik və orta biznesin inkişafını, yeni KOB subyektlərinin yaranmasını stimullaşdırır, rayonun iqtisadi potensialının daha dolğun reallaşdırılmasına dəstək olur.KOB evlərində sahibkarlara təqdim olunan xidmətlərdən məmnunluq səviyyəsinin ölçülməsi üçün elektron sistem tətbiq edilir və hər bir xidmət üzrə yerindəcə sahibkar məmnunluğu ölçülür. KOB evlərində göstərilən xidmətlərdən sahibkarların məmnunluq səviyyəsi hazırda 98 faiz təşkil edir. KOB evlərində onlayn növbə imkanı da mövcuddur. Sahibkarlar "KOB növbə" tətbiqini "GooglePlay" və "App Store"dan yükləməklə KOB evlərinə getmədən onlayn növbə götürə bilərlər. Bu tətbiq sahibkarı KOB evindəki növbə sayı və növbənin bitmə vaxtı və sair kimi məlumatlarla təmin edir. Agentliyin məlumatına görə, "KOB növbə" mobil tətbiqinin yaradılmasında məqsəd KOB evlərinə müraciət edən sahibkarlar üçün operativ xidmətin təmin edilməsi və əlavə vaxt itkisinə yol verməməkdir.Ötən il KOB evlərində sahibkarlara 456 minə yaxın xidmət göstərilib. KOB-ların maliyyə imkanlarının genişləndirilməsi məqsədilə onların təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi mexanizmi üzrə 2024-cü ildə təşkil olunmuş iki müsabiqə çərçivəsində sahibkarların 41 layihəsinə 714 min manat həcmində qrant vəsaiti ayrılıb. İndiyədək isə qrant dəstəyi mexanizmi çərçivəsində KOBİA sahibkarların 100-ə yaxın layihəsinə 1,7 milyon manat həcmində qrant dəstəyi göstərib.

2024-cü ildə mikro və kiçik sahibkarlara innovasiya fəaliyyəti üzrə əldə etdikləri gəlirlərə 3 il müddətinə vergi güzəştlərini nəzərdə tutan "Startap" şəhadətnaməsi 65 mikro və kiçik sahibkara təqdim olunub. Bu mexanizmin işə düşdüyü 2021-ci ildən bu günə qədər isə Agentlik tərəfindən KOB-lara 200-ə yaxın "Startap" şəhadətnaməsi verilib.

Yeni biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən iş adamlarının risklərinin sığortalanması baxımından daxili bazar araşdırması əhəmiyyətli mexanizmdir. Bu mexanizm çərçivəsində KOBİA tərəfindən 2024-cü ildə 10, indiyədək isə 61 daxili bazar araşdırması aparılıb.

Ötən il ilk KOB klaster şirkəti dövlət qeydiyyatına alınıb və bu şirkətə müxtəlif vergi güzəştlərini nəzərdə tutan "KOB klaster şəhadətnaməsi" təqdim olunub. 2024-cü ildə ölkəmizdə və xaricdə keçirilmiş 21 sərgi və yarmarka çərçivəsində 500-dən çox KOB subyektinin məhsullarının sərgilənməsinə, Agentlik tərəfindən ticarət şəbəkələrində yaradılmış 8 satış nöqtəsində 60-a yaxın sahibkarlıq subyektinin məhsullarının satışına dəstək təmin edilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Torpaq sahələrinin icarəyə verilməsinə dair yeni qaydalar

***Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi əsaslarında dəyişiklik edilir.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin Regional məsələlər komitəsinin bu gün keçirilən iclasında müzakirə olunan Torpaq Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Mövcud qanunvericiliyə əsasən, torpaq sahəsinin bələdiyyə mülkiyyətində olan müəssisə, idarə və təşkilatların istifadəsinə və ya fərdi yaşayış evinin tikintisi üçün vətəndaşın mülkiyyətinə verilməsi barədə, habelə hüquqi və fiziki şəxslərin mülkiyyətinə (icarəsinə) verilməsi məqsədilə hərracın (müsabiqənin) keçirilməsi barədə bələdiyyənin qərarı sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının rəyi alındıqdan sonra qəbul edilir.

Təklif edilən dəyişikliyə əsasən, bu qayda təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin ayrılması halına şamil edilməyəcək.

"Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən, təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin verilməsi halları istisna olmaqla, digər hallarda bələdiyyə torpaqları üzərində mülkiyyət və icarə hüquqları yalnız açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə ediləcək.

***Anar Kəlbiyev***

22_27 IYUI-QARA.qxd 6/12/2025 10:45 PM Page 13



# Kartlardan 6 mindən çox vəsait oğurlanıb



***İyunun 11-də vətəndaşların bank kartlarından 2594, 1500, 820, 400, 306, 300, 104, 60, 48 manat və 89 avro məbləğində pul vəsaitləri kiber üsulla oğurlanıb.***

“Unikal” xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib.

”Bu hallar, əsasən, naməlum nömrələrdən gələn zənglər, “sizin adınız, nömrəniz uduşa düşüb” kimi mesajlar, saxta saytlar və sosial platformalar vasitəsilə həyata keçirilir.

Zərərə məruz qalmamaq üçün bank kartının CVV kodu (kartın arxa hissəsindəki 3 rəqəm), OTP - mobil telefonunuza gələn təsdiq şifrəsi, PIN kodunu paylaşmayın, verməyin. Bu məlumatları istəyəni bank işçisi kimi tanımayın, cinayətkardır”, DİN-dən bildirilib..

Daxili İşlər Nazirliyi vətəndaşları bir daha diqqətli olmağa, şübhəli hallarla rastlaşdıqda dərhal polis orqanlarına və banklara müraciət etməyə çağırır.

# “TikTok”da dələduzluq edən şəxs saxlanıldı



***Sosial şəbəkələr vasitəsilə ucuz telefonlar satmaq istəyən şəxs saxlanılıb.***

“TikTok” sosial şəbəkəsində mobil telefonları dəyərindən ucuz qiymətə satdığı barədə yalan elanlar yerləşdirərək ona müraciət edənlərin müxtəlif məbləğlərdə pulunu onlayn yolla ələ keçirən şəxs saxlanılıb.

Lerik Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Məhəmməd Abbasov tutulub.

Həmin şəxsin paytaxt və bölgələrdən olan ümumilikdə 23 nəfərə qarşı eyni üsulla dələduzluq etdiyi müəyyən edilib.

M.Abbasovun analoji əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa, bu barədə polisə məlumat verə bilərlər.

# DSMF sədrinə yeni müşavir təyin olundu



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Sosial Müdafiə Fondunda yeni təyinat olub.***

“Unikal” Banker.az-a istinadən xəbər verir ki, Rövşən Tofiq oğlu Didavari 2025-ci ilin may ayından etibarən DSMF-nin İdarə Heyəti sədrinin müşaviri vəzifəsinə təyin olunub.

Ona qədər bu vəzifədə Yusif Eyvaz oğlu Əkpərov idi.

Qeyd edək ki, R.Didavari 2024-2025-ci illərdə Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialın Müraciətlərə baxılması departamentinin Hərbi rütbəli şəxslərin müraciətlərinin cavablandırılması şöbəsində böyük mütəxəssis kimi fəaliyyət göstərib.

# Bakıda silah-sursat aşkarlandı

***Polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silahların əməliyyat yolu ilə aşkarlanması və könüllü təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.***

”Unikal” xəbər verir ki, polis əməkdaşlarının keçirdikləri növbəti profilaktik tədbirlər nəticəsində Yasamal rayon sakini olan bir nəfər 1 avtomat silahı, 1 patron darağı və 30 ədəd patronu könüllü olaraq polisə təhvil verib.

Binəqədi və Qaradağ rayonları ərazisində isə polis əməkdaşları tərəfindən 1 avtomat silahı, 1 tapança, 3 tüfəng, 1 patron darağı və 15 ədəd patron tapılaraq götürülüb.

Araşdırmalar aparılır.

# “Billur Petrol” işçilərin hüquqlarını pozdu - Şirkətin rəhbəri cəzalandırıldı

***“Billur Fimrası” MMC tərəfindən işçinin əmək hüquqlarının pozulması faktı ilə bağlı Tovuz rayon prokurorluğunda araşdırma aparılıb.***



”Unikal” xəbər verir ki, araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən (bağlanmadan) şəxsin Tovuz rayonu ərazisində yerləşən “Billur Petrol” yanacaq doldurma məntəqəsində operator vəzifəsində işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Faktla bağlı Tovuz rayon prokurorluğunda İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (konktraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilib və məhkəmənin qərarı ilə hüquqi şəxs 20 min manat məbləğində inzibati cərimə edilib.

Eyni zamanda Cəmiyyətin direktoru Dəmirov İlham Kamıl oğlu barəsində həmin Məcəllənin eyni maddəsilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Qazax-Tovuz regional şöbəsinə göndərilib və vəzifəli şəxs müvafiq qərarla 3 min manat məbləğində cərimə edilib.

# Kürdəmirdə bu avtomobil yolları yenidən qurulur



***Vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək, kənd təsərrüfatının inkişafını dəstəkləmək məqsədilə respublika üzrə yol infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.***

Bu çərçivədə, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, Kürdəmir rayonunda Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi magistral yolunu Sığırlı, Ərşəli, Muğanlı, Xınıslı kəndləri və Karrar qəsəbəsi ilə birləşdirən avtomobil yollarının yenidən qurulması işlərinə start verilib.

”Unikal” xəbər verir ki, layihə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilir və 12 mindən artıq əhalinin yaşadığı 5 yaşayış məntəqəsini əhatə edir.

Uzunluğu 18 kilometr olan, çınqıl örtüklü mövcud yol xüsusilə payız-qış mövsümündə nəqliyyat vasitələrinin və piyadaların hərəkətində çətinliklər yaradırdı. Bu səbəbdən yolun əsaslı şəkildə yenidən qurulmasına zərurət yaranmışdı. Yol 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir. Genişliyi 10 metrədək artırılır, bu da 6 metr hərəkət hissəsi və hər iki tərəfdə 2 metr çiyin hissəsini əhatə edir.

Hazırda layihənin 4 km-lik Muğanlı hissəsində ”İnşaat Norma və Qaydaları”na uyğun şəkildə torpaq işləri, qazma, əksdolğu və yol yatağının tikintisi üzrə texnoloji ardıcıllığa əsaslanan işlər davam etdirilir.

Eyni zamanda, yol boyunca suların ötürülməsi məqsədilə mövcud dəmir-beton borular bərpa olunur, zəruri sahələrdə isə müxtəlif diametrli yeni suötürücü borular quraşdırılır.

Layihənin yekun mərhələsində hərəkətin təhlükəsiz və səmərəli təşkili məqsədilə yol nişanları, siqnal dirəkləri, kilometr göstəriciləri və dayanacaqların quraşdırılması, eləcə də yolcizgi və yolgöstərici xətlərinin, piyada keçidlərinin çəkilməsi işləri həyata keçiriləcək.

# Siyəzəndə avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması haqqında statistika

***Siyəzən rayonunda 2025-ci ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2218 min nəfər sərnişin daşınmış, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artım müşahidə olunmuşdur.***

2025-ci ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı ilə 279,0 min ton yük daşınmış və 2024-cü ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artmışdır.

2025-ci ilin yanvar-mart aylarında nəqliyyat müəssisələri tərəfindən 973,4 min manatlıq xidmət göstərilmiş, 2024-cü ilin müvafiq dövrünə nisbətən 46,3 faiz artmışdır. Göstərilmiş xidmətin 18,5 min manatı (1,9 faizi) dövlət sektorunun, 954,9 min manatı (98,1 faizi) qeyri-dövlət sektorunun müəssisələri tərəfindən həyata keçirilmişdir.

***Siyəzən Rayon Statistika İdarəsinin rəisi Kamil Xəlilov***

# Ucar rayonu üzrə pensiya, sosial müavinət, ünvanlı dövlət sosial yardımı haqqında statistik məlumat

***2025-ci ilin əvvəlinə Ucar rayonunda pensiyaçıların sayı 7923 nəfər olmuşdur. Pensiyaçıların 4838 nəfəri yaşa görə, 1890 nəfəri əlilliyə görə, 1195 nəfəri ailə başçısını itirməyə görə pensiya alan şəxslərdir.***

Təyin olunmuş aylıq pensiyaların orta məbləği 382,55 manat təşkil etmişdir. Pensiyaçıların ümumi sayından 915 nəfəri işləyən şəxslər, 7008 nəfəri işləməyən şəxslərdir.

2025-ci ilin əvvəlinə əhaliyə dövlət tərəfindən verilən sosial müavinət təyin olunmuş şəxslərin 4321 nəfər, bir nəfərə düşən sosial müavinətin orta aylıq məbləği isə 192,15 manat olmuşdur.

2025-ci ilin yanvar ayının 1-i vəziyyətinə rayonda aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı 976 nəfər, 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği 109,11 manat təşkil etmişdir.

***Ucar Rayon Statistika idarəsinin rəis müavini Emin Qəhrəmanov***

# Xaricdə təhsil almış 52 nəfərin diplomu tanınmayıb

***May ayı üzrə 421 müraciətçinin 369-u barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 52 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***

Bu barədə "Unikal"a Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.

Bildirlib ki, mənfi qərarla yekunlaşan müraciətlərə nümunə olaraq 39 fakt üzrə tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olunması, 6 tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olunması və əhəmiyyətli fərq, 4 əhəmiyyətli fərq (kredit sayı, ixtisaslararası uyğunsuzluq), 2 dövlət nümunəli olmayan diplom, 1 təhsil formasını göstərmək mümkündür.



Ölkələr üzrə Türkiyə Respublikasından 134, Rusiya Federasiyası 78, Ukrayna 68, Birləşmiş Krallıq 35, Gürcüstan 19, Polşa Respublikası 14, Çin Xalq Respublikası və İtaliya Respublikalarının hər birindən 9, Almaniya Federativ Respublikası 8, Macarıstan 6, Banqladeş Xalq Respublikası 4, Amerika Birləşmiş Ştatları, İsveçrə Konfederasiyası, Koreya Respublikası 3, Latviya Respublikası və Niderland Krallığının hər birindən 3, Belçika Krallığı, İsrail Dövləti, Litva Respublikası, Özbəkistan Respublikası və Qazaxıstan Respublikalarının hər birindən 2, həmçinin Belarus Respublikası, Estoniya Respublikası, Fransa Respublikası, Hindistan Respublikası, İran İslam Respublikası, İspaniya Krallığı, Qana Respublikası, Qırğız Respublikası, Sudan Respublikası, Yaponiya, Yəmən Respublikası və Zimbabve Respublikalarının hər birindən isə 1 müraciət qeydə alınıb.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, menecment üzrə 37, iqtisadiyyat üzrə 35, biznesin idarə edilməsi üzrə 32, maliyyə üzrə 28, beynəlxalq münasibətlər üzrə 21 müraciət qeydə alınıb.

# COVID-19-a yoluxmuş uşaqların nəzərinə - Bu xəstəlik riski artır

***Yeni bir araşdırma göstərir ki, COVID-19-a yoluxmuş uşaqlar ürək-damar xəstəlikləri riskinin artması ilə üzləşə bilər, bunu qan plazmasının metabolizmasındakı dəyişikliklər sübut edir.***

"Unikal" xəbər verir ki, bu barədə Harvard Universiteti və Avstraliya Milli Fenomenin Tədqiqi Mərkəzinin (Merdok Universiteti) alimləri araşdırma aparıblar.

Elm adamları COVID-19-un səbəb olduğu müxtəlif xəstəlikləri olan 147 uşağın qan nümunələrini təhlil edərək kəskin virus infeksiyası mərhələsindən sonra əhəmiyyətli metabolik pozğunluqlar aşkar ediblər. Bu dəyişikliklər bədənin ürək sağlamlığı üçün zəruri olan yağları (triqliseridlər və xolesterol) emal etməsinə təsir göstərir.



Uşaqların böyüklərə nisbətən COVID-19-un ağır ağciyər təsirlərinə daha az həssas olduğu düşünülür. Bununla belə, COVID-19 bəzi yetkinlərdə ürəyin zədələnməsinə səbəb olur və bu araşdırma göstərir ki, COVID-19 və MIS-C (uşaqlarda multisistem iltihabi sindromu) olan uşaqlarda qan metabolizmində əhəmiyyətli dəyişikliklər var, bəzilərinə ürək-damar risk markerlərində dəyişikliklər daxildir. MIS-C çoxlu orqan sistemlərinə təsir edir və miyokard və damar sistemində dəyişikliklər də daxil olmaqla, əhəmiyyətli ürək zədələnməsinə səbəb ola bilər. Uşaqlarda MIS-C və COVID19-un molekulyar imzaları arasında oxşarlıqlar tapılıb, MIS-C xəstələri daha ciddi şəkildə təsirlənib

Qeyd olunur ki, COVID-19-un uşaqlara mümkün uzunmüddətli təsirləri ilə bağlı əlavə araşdırmalara ehtiyac var.

***Gülayə Mecid***

# 2025-ci ilin yanvar-mart ayları üzrə Yevlax şəhərində tikintinin əsas göstəricilərinə dair statistika

***2025-ci ilin yanvar-mart aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 12818,3 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çox investisiya yönəldilmişdir.***

2025-ci ilin yanvar-mart ayları ərzində əsas kapitala yönəldilmiş investisiyaların 11300,7 min manatı dövlət mülkiyyətnə, 1517,6 min manatı isə qeyri dövlət mülkiyyətinə yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 11069,2 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 97,2 faiz və ya 5456,5 min manat çox olmuşdur.




2025-ci ilin yanvar-mart aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş işlərin həcmi 325,0 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 256,1 min manat və ya 44,1 faiz az olmuşdur. Yerinə yetirilmiş işlərin dəyərinin hamısı cari təmir işlərinə sərf edilmişdir.

2025-ci ilin yanvar-mart aylarında fəaliyyət göstərən tikinti müəssisələrində siyahı tərkibli işçilərin orta sayı 119 nəfər olmuşdur.

2025-ci ilin yanvar-mart aylarında muzdlu çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 523,2 manat, əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,7 faiz çox olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev***

# Goranboy rayonunda informasiya və rabitənin əsas göstəriciləri

***2025-ci ilin yanvar-mart aylarında informasiya və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, habelə əhaliyə faktiki qiymətlərlə 845,8 min manatlıq rabitə xidmətləri göstərilmişdir.***

Rabitə xidmətləri 2024-cü ilin müvafiq dövrünə nisbətən 46,2 faiz, əhaliyə göstərilmiş rabitə xidmətləri isə 47,5 faiz artmışdır.

2025-ci ilin yanvar-mart aylarında informasiya və rabitə müəssisələrində çalışmış işçilərin orta siyahı sayı 71 nəfər olmuş və onların orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 91,0 faiz artaraq 759,6 manat təşkil etmişdir.

**Cədvəl 1**

**İnformasiya və rabitə işinin əsas göstəriciləri**

| Göstəricinin adı | 2025-ci ilin yanvar-mart ayları | 2024-cü ilin yanvar-mart ayları | 2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| İnformasiya və rabitə xidmətlərinin həcmi, min manat (ƏDV-siz) | 845,8 | 577,8 | 146,2 |
| Əhaliyə göstərilmiş rabitə xidməti, min manat (ƏDV-lə) | 867,3 | 587,4 | 147,5 |

**Qrafik 1**

**İnformasiya və rabitə xidmətlərinin dinamikası, min manat**




***Goranboy Rayon Statistika İdarəsi***

# 2025-ci ilin üç ayında Ağsu rayonunda sənayenin əsas statistikası

***Ağsu rayonunda 2025-ci ilin yanvar-may aylarında 23881,4 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövründən 1907.2 min manat və ya 8.7 faiz çoxdur.***

İstehsal edilmiş sənaye məhsulunun 22222,5 min manatını emal sənayesi, qida məhsulları 17327,7 min manat, içki istehsalı 3981,0 min manat, poliqrafiya məhsullarının istehsalı 121,8 min manat, rezin və plastik kütlə məmulatlarının istehsalı 146,6 min manat, tikinti materiallarının istehsalı 422,0 min manat, mebellərin istehsalı 184,3 min manat, sair sənaye məhsullarının istehsalı 15,1 min manat, maşın və avadanlıqların quraşdırılması və təmiri 24,0 min manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təshizatı 1520,7 min manat, su təchizatı tullantıların təmizlənməsi və emalı 138,2 min manat təşkil edir.

***Ağsu Rayon Statistika İdarəsinin baş məsləhətçisi L.Cəbrayılova***

# Ehtiyatda olan hərbçimiz vəfat etdi

***Azərbaycan Ordusunun ehtiyatda olan hərbçisi vəfat edib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, ehtiyatda olan baş gizir Vəfadar Allahverdiyev uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.

Qeyd edək ki, mərhum uzun illər kikboksinq idman növü ilə məşğul olub.

***Anar Kəlbiyev***

22_27 IYUl-QARA.qxd 6/12/2025 10:45 PM Page 15





## "Bəlkə də Putinin vecinə deyil" - Tramp

***"Rusiya diktatoru Vladimir Putin Rusiyanın Ukraynaya qarşı müharibədə itkiləri ilə maraqlanmır. Terror ölkəsi hər həftə 5 minə yaxın əsgərini itirir".***

"Unikal" xəbər verir ki, bunu Miranda Devineyə müsahibəsində Amerika Birləşmiş Ştatlarının (ABŞ) prezidenti Donald Tramp deyib.

"Bəlkə də onun (Putin - red.) vecinə deyil, mən düşünməyə başlayıram ki, onun vecinə deyil . O, Ukrayna kimi çoxlu əsgər itirir. Görək bundan sonra nə olacaq", - o əlavə edib.

Trampın sözlərinə görə, Ukrayna ilə Rusiya arasında müəyyən irəliləyiş əldə edilib, lakin sonra tərəflər razılığı pozub.

***Ağarza Elçinoğlu***

## Bu ölkəyə səfər etməyin! - ABŞ xəbərdarlıq etdi

***ABŞ-nin Bağdaddakı səfirliyi amerikalılara İraqa səfər etməməyi tövsiyə edib.***

"Unikal" xəbər verir ki, bu barədə Amerika mətbuatı məlumat dərc edib.

"ABŞ prezidenti Donald Trampın ABŞ qoşunlarının Yaxın Şərqdən çəkildiyini söyləməsindən sonra ABŞ-nin Bağdaddakı səfirliyi cümə axşamı Amerika vətəndaşlarına İraqa səfər etməməyi tövsiyə edib", - deyə məlumatda bildirilir.

Bundan əvvəl ABŞ-nin Yaxın Şərqdəki bütün hərbi bazalarının tam döyüş hazırlığı vəziyyətinə gətirildiyini bildirmişdi.

***Gülayə Mecid***

## İran İsrailə cavab tədbirləri planı hazırlayıb

***İran İsrailin hücumu zamanı "yüzlərlə ballistik raketlə" cavab zərbəsi planı hazırlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "The New York Times" adı açıqlanmayan rəsmiyə istinadən məlumat dərc edib.

"Tehran yüzlərlə ballistik raketlə İsrailə dərhal əks-hücum təşkil edəcək cavab planı hazırlayıb", - qəzet yazıb.

Bundan əvvəl "Reuters" agentliyi "İsrailin İrana hücum etmək ərəfəsində" olduğunu yazmışdı.

***Gülayə Mecid***

## Tramp Kim Çen Inla danışıqlara hazırdır" - Ağ Ev

***ABŞ prezidenti Donald Tramp Şimali Koreya lideri Kim Çen Inla ünsiyyətdə olmağa hazırdır.***

"Unikal" xəbər verir ki, bu barədə Ağ Ev məlumat yayıb.

Ağ Evin mətbuat katibi Caroline Levitt medianın Şimali Koreyanın BMT-dəki nümayəndə heyətinin Trampın Kimə məktubunu dəfələrlə qəbul etməməsi ilə bağlı açıqlamasını belə şərh edib: "Prezident Kim Çen Inla danışıqlara açıqdır".

***Ağarza Elçinoğlu***

# Ermənistan tezliklə Azərbaycana 180 km$^2$ ərazi verəcək

***Ermənistan Respublikası Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryanla Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev arasında sərhəd məsələləri üzrə danışıqlar aparılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" nəşri yazıb.

Qeyd olunub ki, tərəflər Ermənistan-Azərbaycan sərhəd xəttinin necə çəkiləcəyi ilə bağlı razılığa gəliblər:



"Əlimizdə olan xəritələrə görə, Ermənistan tezliklə Azərbaycana daha 180 kvadrat kilometr ərazi verəcək, cəmi 25 kvadrat kilometr ərazini alacaq.

Mənbəmiz deyir ki, Azərbaycan tərəfinin təqdim etdiyi xəritələr əsasında demarkasiya layihəsi demək olar ki, tam hazırdır. Tavuşdan Sünikə qədər nəhəng sərhəd xətti çəkilib.

Anklavlar və eksklavlar məsələsi bu dəfə müzakirə olunmayıb, növbəti mərhələyə qalıb".

***Ağarza Elçinoğlu***

# Ukrayna və Rusiya arasındakı müharibə Trampı şoka salıb

***"Ukrayna və Rusiya arasındakı müharibə pilotsuz təyyarələr müharibəsidir, PUA isə güclü və müasir silahlardır".***

"Unikal" xəbər verir ki, bunu ABŞ prezidenti Donald Tramp "Pod Force One" proqramına müsahibəsində deyib.

"Bu seçim silahıdır. Müharibəyə, dayandırmağa çalışdığımız Ukrayna və Rusiya arasındakı bu dəhşətli müharibəyə baxsanız, bunların hamısı pilotsuz təyyarə müharibəsidir. Bu heyrətamizdir", - Tramp aparıcının PUA ilə bağlı sualına cavab verib.

Prezident pilotsuz təyyarələri "sürətli" və "ağıllı" adlandırıb. Onun sözlərinə görə, "üç il əvvəl heç kim onların bu qədər təsirli olacağına inanmırdı"ş

"Yaxşı pilotsuz təyyarələr əsl müharibə silahlarıdır. Müasir müharibədə Ukrayna və Rusiya hazırkı döyüş əməliyyatlarını öyrənir, həmçinin pilotsuz təyyarələrdən heç kimin düşünmədiyi səviyyədə istifadə edirlər", - Ağ Evin rəhbəri qeyd edib.

***Gülayə Mecid***



# "Katolikosluğa yeni namizədim yoxdur" - Paşinyan

***"Bəziləri Erməni Apostol Müqəddəs Kilsəsinin ikiüzlülərin və fariseylərin əsarətindən azad edilməsi prosesində türk və ya azərbaycanlı izi görməyə çalışır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan sosial şəbəkədəki səhifəsində yazıb.

Paşinyan ad çəkərək Ktriç Nersisyan və onun kimiləri kilsənin müqəddəs yerlərini ləkələyən zadəganlar adlandırıb: "Bəziləri Ktriç Nersisyanı müdafiə edir. Nəyi müdafiə edirsən, kimi müdafiə edirsən? Yalan, saxtakarlıq, çirkinlik. Erməni Apostol Müqəddəs Kilsəsi İsa Məsihə və erməni xalqına qaytarılacaq. Ktriç Nersisyan taxt-tacı boşaltmalıdır.



Çoxları haqq qazandırmaq istəyir ki, mənim yeni katolikos üçün namizədim var. Təəssüf ki, katolikosluğa namizədim yoxdur..."

***Ağarza Elçinoğlu***

# İran müharibəyə hazırlaşır?

***İran ordusu istənilən ssenariyə, o cümlədən mümkün müharibəyə hazırdır.***

"Unikal" SNN agentliyinə istinadən xəbər verir ki, bunu İslam İnqilabı Keşikçiləri Korpusunun komandiri Hüseyn Səlami İrana gözlənilən zərbə ilə bağlı məlumat fonunda bildirib.

Səlami vurğulayıb ki, "düşmən" bəzən İranı hərbi ssenari ilə hədələyir. O xatırladıb ki, İran hakimiyyəti həmişə İslam Respublikasının istənilən ssenariyə tam hazır olduğunu deyib və deməkdə davam edir.

***Gülayə Mecid***



# Rusiya Ayda ilk dəfə AES tikəcək

***Ayda ilk atom elektrik stansiyasının yerləşdirilməsi, həmçinin Veneranın tədqiqi üzrə işlər Roskosmosun qarşısında duran vəzifələr sırasındadır.***

"Unikal" xəbər verir ki, bu barədə Roskosmosun rəhbəri Dmitri Bakanov açıqlayıb. "Vəzifələrə BKS-ni əvəz edəcək yeni Rusiya orbital stansiyasının yaradılması və Ayda ilk atom elektrik stansiyasının - gələcək



Ay bazaları üçün təməlin yerləşdirilməsi daxildir. Biz Veneranı tədqiq edəcəyik. Biz ona aparat endirmiş yeganə ölkəyik", - deyə Bakanov bildirib. Bundan əlavə, onun sözlərinə görə, genişzolaqlı internetə çıxışın sürətini artırmaq və ölkənin hər bir məntəqəsinin əhatə dairəsini təmin etmək üçün orbital qruplaşmanın genişləndirilməsi planlaşdırılır.

***Ağarza Elçinoğlu***

# Millimiz FIFA reytinqində irəlilədi



***FIFA qadın futbolçulardan ibarət milli komandaların reytinq cədvəlini yeniləyib.***

"Unikal" ali futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, Azərbaycan yığmasının da dünya reytinqindəki yeni mövqeyi bəlli olub.

Ötən siyahı ilə müqayisədə bir pillə irəliləyən yığmamız (1303.32 xal) 74-cü sıraya yüksəlib.

Qeyd edək ki, reytinq cədvəlinə ABŞ seçməsi (2057,19) başçılıq edir.

# "Araz-Naxçıvan" israilli futbolçunu transfer etdi

***"Araz-Naxçıvan" mövsümlərarası fasilədə ilk transferini reallaşdırıb.***

Klubdan "Unikal"a verilən məlumata görə, Bar Koen 2025-2026-cı illər mövsümündə "qırmızı-ağlar"ın formasını geyinəcək. Pleymeyker funksiyasını yerinə yetirən 24 yaşlı futbolçu ilə 1 illik müqavilə imzalanıb.

O, buna qədər ancaq İsrail klublarında çıxış edib. Müxtəlif illərdə "Makkabi" (Təl-Əviv), "Beytar" (Təl-Əviv) və "Hapoel" (Hayfa) komandalarının formasını geyinən hücuma-



meyilli yarımmüdafiəçi son iki mövsümü "Makkabi Netaniya"da keçirib. Karyerasında ilk dəfə legioner həyatı yaşayacaq futbolçu Israilin U-17, U-18, U-19 və U-21 millilərinin də üzvü olub.

Qeyd edək ki, buna qədər baş məşqçi Elmar Baxşıyevlə yanaşı, İssof Paro, Ömər Buludov, Kristian Avram, Tərlan Əhmədli, Ürfan Abbasov, Slavik Alxasov, Qara Qarayev, Bəxtiyar Həsənalızadə, Ülvü İsgəndərov, Vanderson Melo, Ramon Maçado və Nuno Rodriqeslə başa çatan müqaviləni yeniləyən "Araz-Naxçıvan" Vadim Abdullayevlə yollarını ayırıb.

# Polşa millisinin baş məşqçisi istefa verdi

***Futbol üzrə Polşa millisinin baş məşqçisi Mixal Probyej vəzifəsini tərk edib.***

"Unikal" xəbər verir ki, bu barədə Polşa Futbol Assosiasiyasının rəsmi saytı məlumat yayıb.

Mütəxəssislə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.

Qeyd edək ki, Mixail Probyej bir neçə gün öncə yığmanın kapitanı



Robert Levandovski ilə bağlı qalmaqalla gündəmə gəlmişdi. O, kapitanlıq sarğısını ulduz futbolçudan aldığı üçün sərt tənqid olunmuşdu. Levandovski isə Probyej istefa verənədək milli komandanın formasını geyinməyəcəyini bildirmişdi.

Mixal Probyej 2023-cü ilin sentyabrında Polşa millisinin baş məşqçisi təyin olunmuşdu.

# Rodriqo "Arsenal"ın hədəfində

***"Real"ın futbolçusu Rodriqo Qoes karyerasını İngiltərədə davam etdirə bilər.***

"Unikal" xəbər verir ki, London "Arsenal"ı hazırda "Real"ın vingerini transfer etməyə çalışan yeganə klubdur.

"Topçular"ın baş məşqçisi Mikel Arteta braziliyalının oyununu diqqətlə izləyib. Mütəxəssis Rodriqonun mövsümlərarası fasilədə transfer edilməyini istəyir. Qeyd olunur ki, "Real" braziliyalının transferi üçün 100 milyon avro istəyəcək.

Rodriqo ötən mövsüm bütün yarışlarda 50 oyun keçirib, 13 qol vurub və 10 məhsuldar ötürmə edib. Onun klubla hazırkı əmək müqaviləsi 2028-ci ilin yayına kimi nəzərdə tutulub.



# Güləşçimiz Avropada qızıl medal qazandı

***Azərbaycanın daha bir güləşçisi Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən U-17 Avropa çempionatında qızıl medal qazanıb.***

"Unikal" xəbər verir ki, üçüncü yarış günündə yunan-Roma güləşçisi Abdurrahman Hüseynli (45 kq) finalda gürcüstanlı Saba Abaşidze ilə qarşılaşıb.

Görüşün taleyini elə ilk hissədə həll edən 15 yaşlı güləşçimiz 9:0 hesablı qələbəylə Avropa çempionu olub.

Elşad Abbasov (51 kq) bürünc



medal uğrunda qarşılaşmada macarıstanlı Keve Kovaça 1:3 hesabıyla məğlub olaraq 5-ci yerlə kifayətlənib.

Əli Nəzərov (60 kq) finalda ermənistanlı Hayk Manukyanla qarşılaşıb. Rəqibinə 3:11 hesabıyla məğlub olan Əli gümüş medala sahib çıxıb.

Bununla da komandamız yarışı 2 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurub.

Qeyd edək ki, dünən Rihad İbrahimli (110 kq) Avropa çempionu olub, Qurban Məcnunovla (48 kq) Nicat Yeylaqaliyev (80 kq) isə üçüncü yeri tutub.

Milli 116 xalla komanda hesabında 3-cü pillədə qərarlaşıb.




# "Qalatasaray"ın yeni transferi Leroy Sane İstanbuldadır

***Almaniyanın "Bavariya" komandasından ayrılan Leroy Sane Türkiyənin "Qalatasaray" klubuna keçib.***

"Unikal" xəbər verir ki, 29 yaşlı futbolçu tibbi müayinə və müqavilə üçün bu gecə İstanbula gəlib. Bu barədə "cim-bom"un rəsmi saytı məlumat yayıb. Almaniyalı oyunçu ilə 3 illik müqavilə imzalanması nəzərdə tutulur.

# "Qarabağ" daha iki futbolçusu ilə vidalaşdı

***"Qarabağ" daha iki futbolçusu ilə vidalaşıb.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, Ağdam təmsilçisi Marko Veşoviç və İsmayıl İbrahimli ilə yollarını ayırıb.

"Qarabağ" daha əvvəl Patrik Andrade və Yassin Benzia ilə əməkdaşlığa son qoyub.

# Azərbaycanlı referi böyüklər arasında dünya çempionatında

***Xəbər verdiyimiz kimi, 13-20 iyun tarixlərində Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə dünya çempionatı keçiriləcək.***

"Qafqazinfo" xəbər verir ki, Azərbaycan cüdoçuları ilə yanaşı yarışda ölkəmizi hakim də təmsil edəcək.

İlk dəfə olaraq böyüklər arasında dünya çempionatında "A" kateqoriyalı beynəlxalq dərəcəli hakimimiz Nazim Umbayev ölkəmizi təmsil edəcək.

# "Zirə" "Qarabağ"dan ayrılan futbolçunu transfer etdi

***"Zirə" iki futbolçusu ilə müqavilə müddətini uzadıb.***

"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, qapıçı Anar Nəzirovla 1 illik yeni müqavilə bağlanılıb.

Həmçinin İsmayıl İbrahimli də transfer olunub. Son iki mövsümü icarə əsasında "Zirə"də keçirən "Qarabağ"ın sabiq yarımmüdafiəçisi ilə 2 illik müqavilə imzalanıb.

# Benzia Səudiyyə Ərəbistanı klubuna keçə biər

***"Qarabağ"la yollarını ayıran Yassin Benzia karyerasını Səudiyyə Ərəbistanında davam etdirə bilər.***

"Unikal" "Africafoot" nəşrinə istinadən xəbər verir ki, əlcəzairli yarımmüdafiəçi həmin ölkədən sərfəli təklif alıb. Hələlik təklif göndərən komandanın adı açıqlanmır.

İddiaya görə, 31 yaşlı oyunçu hazırda Səudiyyə Ərəbistanı çempionatında çıxış edən həmyerliləri Riyad Mahrez, Said Benrahma və Ussem Auarla məsləhətləşdikdən sonra ərəb klubuna keçməyə razılıq verib.

Qeyd edək ki, Yassin Benzia "Qarabağ"ın heyətində 97 oyuna 25 qol və 25 məhsuldar ötürmə ilə yadda qalıb.